SÜLEYMAN İSMAYILOV

# AZƏRBAYCANDA DÖVLƏT QULLUĞU VƏ YENİ ƏSRİN TƏLƏBLƏRİ

This publication has been produced with the assistance of the European Union within the framework of a TACIS project on Civil Service Reform. The contents of this publication can in no way be taken to reflect the views of the European Union.
This publication is not intended for commercial purposes.

Bu nəşr Avropa İttifaqının dəstəyi ilə Dövlət Qulluğu Sahəsində İslahatların Həyata Keçirilməsi üzrə TACİS Layihəsi çərçivəsində hazırlanmışdır. Nəşrin məzmunu heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.
Bu nəşr kommersiya məqsədi daşımır.

Printed 2004
Baku, Azerbaijan

2004
Bakı, Azərbaycan

Azərbaycan Respublikası Prezidenti...
İşlər İdarəsinin
KİTABXANASI

255

Az – 2
İ - 78

**Süleyman İsmayılov.** Azərbaycanda dövlət qulluğu və yeni əsrin tələbləri. Bakı, 2004, 84 səh.

Kitabda müəllifin dövlət qulluğu məsələlərinə dair respublika mətbuatında dərc edilmiş məqalə və müsahibələri toplanmışdır. Bu yazılarda "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunundan və onun tətbiqi mexanizmindən, dövlət qulluqçusunun bu qanunla müəyyən edilən hüquq və vəzifələrindən, yeni əsrdə dövlət qulluqçusu qarşısında qoyulan tələblərdən, dövlət qulluğu sahəsində xarici ölkələrin təcrübəsindən və başqa məsələlərdən bəhs edilir.

İ $\frac{1301000000}{On\text{-}047\text{-}04}$ 2004

DÖVLƏT QULLUĞUNDA İSLAHATLAR ÜZRƏ NƏŞRLƏR SİLSİLƏSİNDƏN

# ÖN SÖZ

***Ronald G.Yanq***

*Dövlət Qulluğu Sahəsində İslahatların Həyata Keçirilməsi üzrə Avropa İttifaqının TACİS Layihəsinin rəhbəri*

Azərbaycanda uğurla fəaliyyət göstərən Avropa İttifaqının TACİS Layihəsinin maliyyə yardımı ilə ötən ilin sonunda "Dövlət qulluğu məsələlərinə dair normativ hüquqi aktlar" toplusu nəşr olundu. Bu toplunun geniş maraq doğurması və ona olan böyük tələbat bizim üçün gözlənilməz oldu və toplu eyni tirajla təkrar nəşr edildi.

Azərbaycanda dövlət qulluğu sahəsində islahatların cəmiyyətdə aktual mövzu olduğunu nəzərə alaraq bu sahədə müzakirələri dəstəkləmək və DÖVLƏT QULLUĞUNDA İSLAHATLAR ÜZRƏ SİLSİLƏ NƏŞRLƏRİ 2004-cü il ərzində davam etdirmək qərarına gəldik.

Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ümumi şöbəsinin müdiri cənab Süleyman İsmayılovun dövlət qulluğu sahəsində islahatların həyata keçirilməsi prosesində xüsusi fəallığını nəzərə alaraq, Layihə bu nəşrlər silsiləsini məhz onun dövlət qulluğu ilə əlaqədar müsahibə və məqalələrindən ibarət toplu ilə başlayır.

Layihənin məqsədi aşağıda sadalanan məsələlərin işlənib hazırlanmasına yardım göstərməkdir:

- "Dövlət qullğu haqqında" Azərbaycan Respublikası Qanununun icra olunması strategiyası

• dövlət qulluğuna qəbula, sınaq müddətinə və daha yüksək dərəcəli vəzifəyə təyin olunmağa dair ətraflı təlimatlar verilməsi

• Azərbaycan Respublikası Dövlət Qulluğunu İdarəetmə Şurasının fəaliyyəti

• dövlət qulluğu sahəsində kadrların idarə edilməsinə dair mərkəzləşdirilmiş məlumat bazasının yaradılması

• təlim materialları

• dövlət idarəçiliyi sahəsində islahatlar strategiyası

Layihənin kitabxanasında hazırda aşağıdakı mövzular üzrə bir neçə dildə materiallar mövcuddur:

♦ Dövlət qulluğuna qəbul və müsahibə keçirilməsi qaydaları

♦ Fəaliyyətin qiymətləndirilməsi

♦ Vəzifədə irəli çəkmə qaydaları

♦ Dövlət qulluğu və dövlət idarəçiliyi sahələrində islahatlar

♦ Dövlət qulluğunda peşəkarlığın inkişaf etdirilməsi

♦ Funksiyaların ötürülməsi ilə bağlı məsələlər - funksional icmalın əhəmiyyəti və Qərbi Avropa təcrübəsi

♦ Məsuliyyət

♦ Yerli dövlət idarəetməsindən yerli özünüidarə hakimiyyətinə – Mərkəzi Avropa təcrübəsi

Layihə tərəfindən həmin materialların bir çoxunun, habelə bu mühüm sahə üzrə çalışan yerli mütəxəssislər tərəfindən hazırlanan materialların növbəti aylarda nəşr edilməsi nəzərdə tutulur.



## MÜƏLLIFDƏN

Azərbaycan artıq on iki ildir ki, öz dövlət müstəqilliyini bərpa etmişdir. Həmin müddətdə ümummilli liderimiz möhtərəm Prezident cənab Heydər Əliyevin rəhbərliyi ilə bu müstəqilliyi qoruyub saxlamaq və möhkəmləndirmək üçün böyük işlər görülmüş, Azərbaycan dünya dövlətləri sırasında özünə layiq yer tutmuşdur. 1995-ci ildə yeni Konstitusiyamız qəbul edildikdən sonra müstəqil dövlətin müasir dünya tələblərinə cavab verən və demokratik, sivil, hüquqi dövlət quruculuğu üçün zəruri olan qanunvericilik bazası yaradılmış, bütün sahələr üzrə müvafiq normativ hüquqi aktlar qəbul edilmişdir.

Belə mühüm aktlardan biri də "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu qanunun qəbul edilməsi respublikada dövlət qulluğunun yeni əsrin tələblərinə uyğun qurulması üçün hüquqi baza oldu və ondan sonra qanunun real surətdə həyata keçirilməsi üçün bir sıra qanun və fərmanlarla müxtəlif əsasnamə, təlimat və qaydalar, sənəd nümunələri, 2003-cü ilin avqustunda isə "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu" təsdiq olundu.

Heydər Əliyevin dövlətçilik ənənələrinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də dövlət qulluğuna dair bir sıra mühüm aktlar, o cümlədən "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu imzalamış, onun

imzaladığı daha iki qanunla isə əsasən dövlət qulluqçularına verilmək üçün nəzərdə tutulmuş "Vətənə xidmətə görə" ordeninin üç dərəcəsinin statutu və təsviri, "Dövlət qulluğunda fərqlənməyə görə" medalının əsasnaməsi və təsviri təsdiq edilmişdir.

Bu normativ hüquqi aktların həyata keçirilməsi mexanizmi, onların mahiyyəti barədə dövlət qulluğunda çalışan şəxslərə daha geniş məlumat verilməsinə həmişə ehtiyac duyulmuş və bundan sonra da duyulacaqdır.

Xidməti fəaliyyətimlə yanaşı Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü kimi respublika mətbuatında bu mövzuda etdiyim çıxışlarla həmin ehtiyacı qismən ödəməyə çalışmışam.

Məlumat üçün bildirmək istərdim ki, dövlət qulluğunun yenidən təşkilində inkişaf etmiş qabaqcıl ölkələrin təcrübəsinin öyrənilməsinə də böyük əhəmiyyət verilir, onların müsbət işlərindən respublikamızda istifadə edilməsinə xüsusi diqqət yetirilir. Bu sahədə görülən işlər haqqında 2002-ci ilin may-iyun aylarında Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin xətti ilə dövlət idarələrində kadr ehtiyatlarının idarə olunmasının əsas problemləri mövzusunda Tokio şəhərində keçirilən seminarda iştirak etdikdən sonra verdiyim geniş müsahibədə söhbət açmış, Yaponiyada, habelə başqa ölkələrdə dövlət qulluğunun idarə olunması sistemi barədə geniş məlumat vermişəm.

Respublikamızda dövlət qulluğunun təkmilləşdirilməsində Avropa İttifaqının dəstəyi ilə Dövlət Qulluğu Sahəsində İslahatların Həyata Keçirilməsi üzrə TACİS Layihəsi çərçivəsində əməkdaşlığın da böyük köməyi olmuşdur.

2003-cü ilin sonunda həmin layihə çərçivəsində Prezidentin İcra Aparatı ilə birgə nəşr olunan "Dövlət qulluğu məsələlərinə dair normativ hüquqi aktlar" kitabı həm dövlət qulluqçularına, həm də oxuculara yaxşı töhfə olmuşdur.

Dövlət qulluğu məsələləri barədə respublika mətbuatında dərc olunmuş məqalə və müsahibələrimin bir kitabda toplanıb hörmətli oxuculara təqdim edilməsi də həmin layihə



çərçivəsində həyata keçirilir. Məqalə və müsahibələrin mətni mətbuatda dərc olunduğu kimi saxlanılır. Onu da qeyd etməliyəm ki, bu yazılar dərc olunduqdan sonra göstərilən qanun təkmilləşdirilərək, ona real həyatdan irəli gələn bir sıra dəyişikliklər edilmiş və yəqin ki, bundan sonra da ediləcəkdir.

Güman edirəm ki, burada əksini tapmış məsələlər dövlət qulluğunun bütün sahələrini və problemlərini əhatə etməsə də, hər halda dövlət qulluğunda çalışanlar, özünü bu çətin və şərəfli işə həsr etmək istəyən gənclər üçün müəyyən maraq doğuracaq, bəzi məsələlərin öyrənilməsində onlara kömək edəcəkdir.

# DÖVLƏT QULLUĞU VƏTƏNƏ VƏ MİLLƏTƏ XİDMƏT DEMƏKDİR

**Son zamanlar dövlət qulluğu və dövlət qulluqçularının cəmiyyətdə yeri, ölkənin idarə olunmasında onların rolu, əsas hüquq və vəzifələri, bu şəxslərin sosial müdafiəsi məsələləri geniş müzakirə obyektinə çevrilmişdir. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunu və onun həyata keçirilməsi üçün görülən tədbirlər cəmiyyətin bütün təbəqələrini maraqlandırır. Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının ölkə Prezidenti tərəfindən təyin olunmuş 6 üzvündən biri, Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Ümumi şöbəsinin müdiri Süleyman İsmayılovla söhbətimiz də məhz bu məsələlərə aydınlıq gətirmək məqsədi daşıyır.**

— ***Süleyman müəllim, Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev sizi "Dövlət qulluğu haqqında" Qanuna uyğun olaraq, Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü təyin etmişdir. Çoxsaylı oxucu marağını nəzərə alaraq xahiş edirik ki, bu qanunun yaranma zərurəti, əhəmiyyəti və mahiyyəti barədə məlumat verəsiniz.***

— Məlum olduğu kimi, dövlət qulluqçularının cəmiyyətimizin böyük bir təbəqəsini təşkil etməsinə baxmayaraq, indiyədək onların hüquq və vəzifələri, o cümlədən sosial müdafiəsi məsələləri qanunvericilikdə hərtərəfli əhatə olunmamış və dəqiq tənzimlənməmişdi. Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra, xüsusilə möhtərəm Prezidentimiz Heydər Əliyevin rəhbərliyi dövründə həyatımızın, demək olar ki, bütün sahələri üzrə müasir tələblərə və sivil normalara uyğun mükəmməl hüquqi baza yaradılmışdır. Bu il sentyabrın 1-dən qüvvəyə minmiş "Dövlət qulluğu haqqında" Qanunun qəbul olunması da məhz həmin məqsədi daşıyır və qeyd etdiyimiz kimi,



cəmiyyətimizin geniş bir təbəqəsinin hüquqlarını və vəzifələrini müəyyənləşdirir. Qanun bu sahədə mövcud olan bütün məsələləri və problemləri ümumi şəkildə tənzimləməklə bərabər, həm də Azərbaycanın tarixində bu qəbildən ilk mükəmməl sənəddir. Bu qanun hazırlanarkən dünyanın demokratik ölkələrinin qanunvericilik təcrübəsindən istifadə olunsa da, xalqımızın mentaliteti və milli dövlətçilik ənənələri əsas götürülmüşdür. Belə geniş əhatəli qanunun icrası bir çox başqa qanunvericilik aktlarında da müvafiq dəyişikliklər edilməsini, onun həyata keçirilməsi və icrası mexanizminin yaradılmasını, bundan irəli gələn normativ hüquqi sənədlərin işlənib hazırlanmasını tələb edir.

— ***Bu sahədə işlər nə vəziyyətdədir?***

— Həmin sənədlərin hazırlanıb qəbul edilməsi heç də sadə məsələ deyil, böyük vaxt, zəhmət, məsuliyyət və diqqət tələb edən bir prosesdir. "Dövlət qulluğu haqqında" Qanunla əlaqədar qəbul olunmuş digər aktlara gəldikdə isə bunlar az deyildir. İndiyədək bununla əlaqədar 3 qanun, 11 fərman imzalanmışdır və yaxın vaxtlarda daha bir neçə sənəd qəbul ediləcəkdir.

Bildiyiniz kimi, hər bir qanunun tətbiqi onun başqa qanunvericilik aktları ilə uzlaşdırılmasını, həmin aktlara müvafiq dəyişikliklər və əlavələr olunmasını tələb edir. "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr edilməsi barədə" qəbul edilmiş qanunları buna misal göstərmək olar.

Eyni zamanda, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli Fərmanında Prezidentin İcra Aparatına və respublika Nazirlər Kabinetinə iyirmiyədək belə sənəd hazırlanması tapşırılmışdır. Qeyd etdiyimiz kimi, indiyədək həmin normativ hüquqi sənədlərin bir çoxu qəbul olunub və bu proses indi də davam edir.

*— Bu sənədlər haqqında bir qədər müfəssəl məlumat versəydiniz, daha yaxşı olardı.*

— Həmin sənədlərin hər biri bilavasitə qanunun bu və ya digər maddələrinin tətbiqi ilə əlaqədardır. Məsələn, dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanlarından ötrü test nümunələrinin hazırlanması və qəbul edilməsi qaydaları böyük maraq doğurur. Bu yolla dövlət qulluğuna qəbul edilən şəxslər müvafiq qaydada hazırlanmış test nümunələri əsasında imtahan verəcək, onların bilik və ixtisas səviyyəsi öyrəniləcəkdir. Bu, təsadüfi adamların dövlət qulluğuna qəbul edilməsinin qarşısını alacaqdır.

Yeni qanunda təkcə test imtahanları deyil, həm də dövlət qulluğuna qəbul zamanı müsabiqə yolu da nəzərdə tutulmuşdur. Müsabiqə vasitəsilə qəbul qanunda göstərilən inzibati vəzifələrin onuncu-on dördüncü təsnifatına uyğun olan vəzifələr boşaldıqca onların tutulması üçün həyata keçirilir. Bu qaydalarda müsabiqənin elan edilməsi, test imtahanlarının keçirilməsi, toplanılmış minimum balların faizi, test imtahanlarından keçmiş şəxslərlə söhbətin aparılması və bu söhbətdə yığılası balların miqdarı, hətta söhbətin müddəti öz əksini tapır. Əgər müsabiqənin nəticəsindən narazılıq yaranarsa, sənəddə ondan şikayət verilməsi qaydası da göstərilir.

***— Vəssalam, müsabiqədən keçən şəxs dövlət qulluqçusu hesab olunur?***

— Bununla hər şey bitmir. Qanunda nəzərdə tutulduğu kimi, müsabiqədən keçən şəxslər sınaq müddətinə işə götürülür və onlarla müvafiq müqavilə (kontrakt) imzalanır. Dövlət qulluğuna qəbul üçün əmək müqaviləsinin nümunəsi də ölkə Prezidentinin fərmanı ilə təsdiq olunmuş sənədlərdən biridir.

Dövlət qulluğuna qəbul edilən şəxsin dövlət qulluğunda işləməsinin mümkün olub-olmamasının qabaqcadan öyrənilməsi qaydaları bir sıra məsələlərə aydınlıq gətirilməsini tələb edir. Bura dövlət qulluğuna qəbul edilən şəxsin ailə vəziyyətinin təfsilatı yoxlanılmadan onun fəaliyyət qabiliyyətinə malik olmasını, dövlət vəzifəsi tutmaq hüququndan məhrum edilib-edilməməsini, bilavasitə tabeliyində və ya nəzarəti altında



işləyəcəyi vəzifəli şəxslə yaxın qohumluq və ya qudalıq əlaqəsini, din xadimi olub-olmamasını yoxlamaq üçün müvafiq təşkilatlara sorğu göndərilməsi kimi məsələlər aiddir. Bütün bunlar dövlət qulluğuna təsadüfi şəxslərin düşməməsi üçündür.

İcra hakimiyyəti orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi qaydalarında isə ixtisas dərəcəsinin kimlər tərəfindən verilməsi, bu dərəcənin hansı müddətdə qüvvədə qalması, onların vəzifə maaşına edilən əlavə haqqın məbləği, bu vəsaitin hansı mənbədən ödənilməsi, ixtisas dərəcəsi ilə əlaqədar mübahisələrə harada baxılması kimi məsələlər öz əksini tapır.

İcra hakimiyyəti orqanlarında vəzifələrin tutulması ilə bağlı dövlət orqanının rəhbəri dövlət qulluğunu idarəetmə orqanının tövsiyəsi ilə razılaşmadıqda yaranmış fikir ayrılığının aradan qaldırılması qaydalarında isə göstərilir ki, belə vəziyyət alındıqda Dövlət Qulluğunu İdarəetmə Şurasına 3 gün müddətində rəsmi müraciət edilməli və şurada bu müraciətə 15 gün ərzində baxılıb qərar qəbul olunmalıdır. Şuranın qərarının icrası isə məcburidir.

Dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamədə belə şikayətlərin verilməsi üçün qoyulmuş müddətlər, təqdim edilməli sənədlər, bu şikayətlərə baxılma müddəti və digər məsələlər öz əksini tapır.

Qanunla əlaqədar digər sənədlər üzərində də iş davam edir və bir sıra əsasnamələr və qaydalar hazırlanır. Qanunun tətbiqi barədə fərmanda göstərilən "İnzibati vəzifələrin təsnifatı toplusu", Dövlət Qulluğunu İdarəetmə Şurasının Əsasnaməsi və digər sənədlər də artıq qəbul olunmaq üzrədir. Son günlərdə Milli Məclisdə haqqında söhbət gedən əsasnamənin layihəsinin müzakirəsi gedir. Deputatlar arasında geniş müzakirəyə səbəb olan bu sənəd də yəqin ki, tezliklə qəbul ediləcəkdir.

***— Əsasnamə qəbul edildikdən sonra Dövlət Qulluğunu İdarəetmə Şurası öz fəaliyyətinə başlayacaqmı? Ümumiyyətlə, şuranın fəaliyyəti necə həyata keçiriləcəkdir?***

— Siz də, oxucularımız da bilirlər ki, şuranın cəmi 18 üzvü olacaqdır. Artıq Konstitusiya Məhkəməsi və Milli Məclis

tərəfindən də üzvlər təyin olunmuşdur. Şura üzvləri özlərinə sədr seçdikdən sonra o, fəaliyyətə başlayacaq və öz işini ictimai əsaslarla davam etdirəcəkdir. Çünki qanuna və əsasnaməyə uyğun olaraq şura dövlət orqanı deyildir. Öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, qeyd etdiyimiz normativ hüquqi aktları, öz əsasnaməsini rəhbər tutacaqdır. Onun əsas vəzifəsi isə müasir dövlət idarəetməsinin tələblərinə cavab verən dövlət qulluğunun təşkilinin və fəaliyyət göstərməsinin təmin edilməsindən ibarətdir. Şuranın iclasları ildə altı dəfədən az olmayaraq keçiriləcək və qarşısına qoyulan vəzifələri öz iş reqlamentinə uyğun olaraq yerinə yetirəcəkdir. Şura vahid dövlət kadr siyasətinin formalaşdırılmasında, dövlət hakimiyyəti orqanlarında dövlət qulluğunun vəziyyətinin və səmərəliliyinin təmin edilməsində, kadr təminatının proqnozlaşdırılmasında, dövlət hakimiyyəti orqanlarının dövlət qulluğu və kadr xidmətlərinin metodik işinin əlaqələndirilməsində, dövlət qulluqçularının şikayətlərinə baxılmasında, onların peşə hazırlığının və ixtisasının artırılması üçün təkliflər hazırlanmasında, dövlət qulluqçuları üçün qanunla müəyyən olunmuş məhdudiyyətlərin və təminatların yerinə yetirilməsinə nəzarətin təşkilində iştirak edəcəkdir.

Şura öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün müvafiq dövlət hakimiyyəti orqanlarından zəruri materialları almaq, dövlət qulluğu ilə əlaqədar normativ hüquqi aktların və metodik göstərişlərin layihələrini hazırlamaq, dövlət qulluğunun səmərəli təşkilinin vəziyyətini təhlil etmək, dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqini öyrənib ümumiləşdirmək və bununla əlaqədar tədbirlər hazırlamaq hüququna malikdir. Əsasnamədə qeyd olunduğu kimi, şuranın qəbul etdiyi qərarların məcburiliyi müvafiq dövlət qulluqçuları üçün respublika Prezidenti, Milli Məclisin və Konstitusiya Məhkəməsinin sədrləri tərəfindən təmin ediləcəkdir.

Təbiidir ki, şura üzvlərinin əksəriyyəti bilavasitə öz işlərində çalışdığına görə şurada kargüzarlıq işlərini aparmaq və digər məsələləri həll etmək, cari və texniki işləri yerinə yetirmək üçün katiblik yaradılacaq, bu qurum ona həvalə olunmuş işləri yerinə yetirəcəkdir.



***— Süleyman müəllim, siz "Dövlət qulluğu haqqında" Qanunun icrası ilə əlaqədar qəbul edilmiş sənədlər barədə müəyyən qədər məlumat verdiniz. Lakin bir daha dövlət qulluqçusunun bu qanunun icrasından nə əldə edəcəyi məsələsinə qayıtmaq istərdik. Bunun sadə vətəndaşlara və bütövlükdə cəmiyyətə nə kimi faydası olacaqdır?***

— Qeyd etdiyimiz kimi, dövlət qulluqçularının hüquq və vəzifələrini müəyyənləşdirən qanunlar demokratik ölkələrin əksəriyyətində çoxdan fəaliyyət göstərir və bu aktlar uğurla tətbiq olunur. Məncə, qanunun əsas məziyyətlərindən biri odur ki, burada ilk növbədə dövlət qulluğunda çalışan şəxsin peşəkarlığı, dövlətə və Vətənə sədaqəti, işgüzarlığı, mənəvi saflığı ön plana çəkilir. Bu cəhətdən dövlət qulluqçusunun qanunla təsbit olunmuş andının mətni çox səciyyəvidir. Qanunda həmin andın mətni belə müəyyən edilmişdir: *"Azərbaycan Respublikasına sadiq olacağıma, onun Konstitusiyasına dönmədən əməl edəcəyimə, dövlət sirrini və xidməti sirri qoruyacağıma, dövlət qulluğunun mənə verdiyi hüquqları və üzərimə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, ancaq qanuna uyğun surətdə, var gücümlə və Vətənin mənafeyi naminə həyata keçirəcəyimə and içirəm".*

Qanunda bu sözlər ritorika xatirinə yazılmayıb və onun digər maddələrində hər bir kəlmənin mahiyyəti və məsuliyyəti dəqiq müəyyən edilmişdir. Məsələn, qanunun bir sıra maddələrində dövlət qulluqçusunun əsas vəzifələri və hüquqları öz əksini tapmışdır. Sənəddə həmçinin dövlət qulluqçuları üçün təminatlar, dövlət qulluqçusunun məvacibinin qədəri, onların pensiya təminatı, mükafatlandırılması məsələləri öz əksini tapmışdır. Lakin dövlət qulluqçusuna edilən bütün güzəştlər, yaxud onun barəsində tətbiq olunan inzibati və intizam tənbehləri bundan sonra ancaq adlarını çəkdiyimiz qaydalara və əsasnamələrə uyğun həyata keçiriləcəkdir. Dövlət qulluqçularının mənəvi həvəsləndirilməsi cəhətdən də qanunda maraqlı müddəalar vardır. Məsələn, qanunda göstərilir ki, dövlət qulluqçularının xidmətdə peşəkarlıq səviyyəsinin artması, vəzifə borcuna və

andına sədaqəti dövlət tərəfindən qiymətləndirilməlidir. Onun xidmətlərinin dövlət tərəfindən təsdiq edilməsi *"Vətənə xidmətə görə" ordeninin üç dərəcəsi, "Dövlət qulluğunda fərqlənməyə görə"* medalı ilə, digər orden və medallarla təltif olunmasından, habelə Azərbaycan Respublikasının fəxri adlarını almasından ibarətdir. Yeri gəlmişkən, deyim ki, bu orden və medallarla əlaqədar sənədlər də hazırlanıb Milli Məclisin təsdiqinə veriləcəkdir. Bunlar dövlət qulluqçusunun işə münasibətini, eyni zamanda, onun əməyinə qiymət verilməsini təmin edir, onu cəmiyyətə daha vicdanla xidmət etməyə həvəsləndirir. Bütövlükdə, bu qanunun tətbiqi dövlət qulluqçusunun digər sahələrdə çalışan mütəxəssislər kimi tutduğu vəzifədə sabit fəaliyyətini, daha doğrusu, onun sabaha inamını təmin edir desək, yanılmarıq.

Qanunun bir sıra maddələrində isə dövlət qulluqçularının məsuliyyəti müəyyənləşdirilmişdir. Cəmiyyətin bundan nə fayda görəcəyi barəsində düşünsək, onu deyə bilərik ki, hər bir dövlət qulluqçusunun düzgün, normal və məsuliyyətli işi ümumilikdə, hər bir vətəndaşın daha rahat yaşamasına kömək edir, süründürməçilik və bürokratiya halları ilə qarşılaşmasına yol vermir və cəmiyyətdə qanunların aliliyini və pozulmazlığını təmin edir.

Söhbətimizin sonunda qeyd etmək istərdim ki, adlarını çəkdiyimiz əsasnamələrin və qaydaların hər birinin icrasının şura tərəfindən təmin ediləcəyinə heç bir şübhə ola bilməz. Konkret olaraq şuranın fəaliyyətinə gəldikdə isə, oxucularımız ümidvar ola bilərlər ki, bu qurumun fəaliyyəti yalnız qanunların aliliyi, humanizm və ədalət prinsipləri əsasında həyata keçiriləcəkdir.

— ***Arzu edərdik ki, bu sahədəki yeniliklər, görülən işlər barədə oxucularımıza vaxtaşırı məlumat verəsiniz.***

— Biz həmişə hazırıq.

*"Xalq qəzeti"*
*13 dekabr 2001-ci il*



# YENİ ƏSRİN DÖVLƏT QULLUQÇUSU

***Yeni əsrin dövlət qulluqçusunu necə təsəvvür edirik, onun səciyyəvi xüsusiyyətləri nədən ibarət olmalıdır? Dövlət qulluqçusunun fəaliyyəti müasir dövrümüzün ruhuna uyğun yenidən necə qurulmalıdır?***

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra, xüsusən möhtərəm Prezidentimiz zati-aliləri Heydər Əliyevin rəhbərlik etdiyi dövrdə cəmiyyət həyatının, demək olar ki, bütün sahələrinin hüquqi cəhətdən tənzimlənməsi təmin edilmiş və bu, müvafiq normativ hüquqi aktlarda öz əksini tapmışdır.

Dövlət başçısının məruzə və çıxışlarının əksəriyyətində Azərbaycanın gələcək inkişaf yolları və bu tərəqqini uğurla həyata keçirmək üçün zəruri olan vasitələr öz əksini tapmışdır. Burada əsas istiqamət iqtisadiyyatın və dövlətin əsaslarını gücləndirmək üçün aparılan islahatlardır. Dövlət qulluğu sistemini təkmilləşdirmək sahəsindəki islahatlar bu sırada çox mühüm yer tutur.

Həm siyasi sahədə, həm dövlət quruculuğu sahəsində, həm də iqtisadi sahədə aparılan islahatlar çox ahəngdar gedir. Lakin islahatların bütün istiqamətlərdə düzgün həyata keçirilməsi bilavasitə dövlətin bu siyasətini yerinə yetirən dövlət qulluqçularından, daha doğrusu, kadrlardan asılıdır.

Respublikamızda 1995-ci ildən başlayaraq dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, çevik və işgüzar idarəetmə strukturunun yaradılması, onun təkrar funksiyaları yerinə yetirən lüzumsuz strukturlardan təmizlənməsi, icra hakimiyyəti orqanlarının funksional vəzifələrinin müəyyən edilməsi məqsədilə xeyli iş görülmüşdür. Bu iş Prezidentin 29 dekabr 1998-ci il tarixli fərmanı ilə respublikanın idarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyası yaradıldıqdan sonra

xüsusilə ardıcıl və məqsədyönlü xarakter almış, sonrakı dövrdə bu sahədə onlarca fərman və sərəncam verilmiş, bir sıra qanunlar, o cümlədən "Dövlət qulluğu haqqında" Qanun qəbul edilmişdir. Bunlar bütövlükdə dövlət qulluğunun səmərəsinin artırılmasına təsir göstərmiş və göstərəcəkdir.

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu bu cəhətdən xüsusi əhəmiyyətə malikdir. Bu mühüm dövlət sənədi yeni əsrdə ölkəmizin idarə olunmasını, müstəqilliyimizin möhkəmləndirilməsini, insanın, sıravi vətəndaşın rifahının yaxşılaşdırılmasını təmin edən kadr siyasətinin yeridilməsinə, əhalinin geniş bir təbəqəsini təşkil edən dövlət qulluqçularının cəmiyyətdəki yerinin, onların hüquq və vəzifələrinin dəqiq müəyyənləşdirilməsinə xidmət göstərir.

Ümumiyyətlə, dövlət vətəndaşlarının ümumi mənafelərinə əsaslanan sosial təsisatdır və dövlət hakimiyyətinin reallaşdırılması texnologiyası isə dövlət qulluğudur. Dövlət qulluğu dövlət mexanizmi olaraq, bütün dövlət orqanlarında və təşkilatlarında fəaliyyət və münasibətlərin məcmusu kimi dövlətin funksiyalarını həyata keçirir. Dövlət qulluğu dövlətin əsas sosial təsisatlarından biridir və dövlət qulluğunun sosial rolu, sosial statusu mövcud sosial-iqtisadi quruluşun xarakterindən, dövlətin tipindən, idarəetmə rejimindən, qulluqçuların kəmiyyət və keyfiyyət tərkibindən, bu qulluğun fəaliyyətinin xarakteristikasından, onun hüquqi tənzimlənməsindən asılıdır. Buna görə də dövlət qulluğu öz mahiyyəti etibarilə dövlətin funksiyalarının həyata keçirilməsinin sosial-inzibati təsisatıdır.

Bu təsisat təkcə idarəetməni həyata keçirmir. O, vətəndaşların həyat və fəaliyyəti üçün müəyyən təminatlar, bütövlükdə cəmiyyətə təsir göstərən sosial standartlar və normalar işləyib hazırlayır, vətəndaşların daha ümumi və əsas tələblərinin ödənilməsini, keyfiyyətli həyat şəraitini təmin edir. Daha doğrusu, dövlət qulluğu tədricən sosial yönümlü təsisata çevrilir.

Statistik məlumatların təhlili göstərir ki, dövlət qulluqçularının cüzi bir hissəsi qanunvericilik hakimiyyətində, böyük əksəriyyəti isə icra və məhkəmə orqanlarında çalışırlar. "Dövlət qulluğu haqqında" Qanunda və onunla əlaqədar qəbul olunmuş aktlarda



bu şəxslərin həm məsuliyyəti, həm onların seçilib yerləşdirilməsinə verilən əsas tələblər, həm yüksək səviyyəli mütəxəssis kimi yetişməsi üçün şərait yaradılması, həm onlar barəsində qoyulan məhdudiyyətlər, həm də sosial müdafiəsi məsələləri nəzərdə tutulmuşdur.

Dövlət qulluğunun ümumi prinsipləri və funksiyaları haqqında geniş diskussiyalar açmaq və müzakirələr aparmaq olar. Lakin nəzərə almalıyıq ki, dövlət qulluğunun əsas prinsip və vəzifələri respublikamızın Konstitusiyasında və adı çəkilən qanunda öz əksini geniş tapmış və ümumi istiqamətləri müəyyənləşdirilmişdir.

Artıq bu qanunun tətbiq edilməsi üçün respublika Prezidenti tərəfindən bir sıra normativ hüquqi sənədlər və normativ aktlar təsdiq edilmiş, Dövlət Qulluğunu İdarəetmə Şurası yaradılmışdır. Hazırda şuranın əsasnaməsi qəbul olunmaq üzrədir. Beləliklə, yeni əsrdə ölkəmizdə kadr siyasətinin müasir tələblərə uyğun aparılması üçün real zəmin formalaşmışdır.

*Dövlət qulluğunda olmaq, əslində dövlətin, millətin, cəmiyyətin, insanların xidmətində olmaq deməkdir. Bu cəhətdən möhtərəm Prezidentimiz Heydər Əliyevin keçdiyi şərəfli həyat yolu, çalışdığı bütün vəzifələrdə onun öz ölkəsi və milləti üçün gördüyü misilsiz işlər öyrənilməyə və tətbiq edilməyə ən yaxşı nümunə olub, bizim üçün həmişə meyar olaraq qalacaqdır.* Bütün mənalı ömrünü respublikamızın tərəqqisinə həsr etmiş bu müdrik insanın respublikada vətəndaşların mənəvi saflığı, xalqının bu günü və gələcəyi naminə çalışması, işgüzar və prinsipial olması üçün gördüyü işləri saymaqla qurtarmaz. 1969-cu ildə respublikaya rəhbərlik etməyə başladığı dövrdən dövlət orqanlarında çalışan şəxslərə qarşı göstərdiyi tələbkarlıq və prinsipiallıq hələ o dövrdə nəinki keçmiş SSRİ-də, hətta xaricdə də böyük rəğbətlə və maraqla qarşılanırdı.

Bir çox məruzə və nitqlərində cənab Prezident özü həmin illəri xatırlayaraq bu sahədə gördüyü işləri qəlbinin hökmü ilə, vətəndaşlıq prinsipi ilə həyata keçirdiyini və bunu yalnız cəmiyyətin saflaşması üçün etdiyini dəfələrlə bildirmişdir. Məhz cənab Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi o illərdə



Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI
255

Azərbaycan gənclərinin öz bilik və istedadlarını nümayiş etdirməsi üçün geniş imkanlar açılmış, minlərlə gənc öz qabiliyyəti və bacarığı ilə ali məktəblərə, o cümlədən 3500 azərbaycanlı gənc keçmiş SSRİ-nin 170-dən çox aparıcı ali məktəbinə daxil olaraq bu gün Azərbaycanda mövcud olan qüdrətli kadr potensialının formalaşmasına böyük təsir göstərmişdir.

Xalqın və dövlətin gələcəyini məhz yüksək ixtisaslı, peşəkar və vətənpərvər insanlarda görən cənab Heydər Əliyev bu müdrik siyasətini müstəqillik dövründə daha uğurla davam etdirir. Ölkənin maddi imkanlarının məhdudluğuna baxmayaraq onun səyi ilə bu iş dünya miqyasına çıxarılmış, yüzlərlə gənc xarici ölkələrə oxumağa göndərilmiş, habelə Azərbaycanın özündə milli kadrların hazırlanması üçün bir neçə yeni akademiya, o cümlədən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Silahlı Qüvvələrin Hərbi Akademiyası, Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası, Aviasiya Akademiyası, Musiqi Akademiyası, Ali Polis Akademiyası və s. kimi elm ocaqları yaradılmış, mövcud ali məktəblərdə yeni dövrün tələb etdiyi mütəxəssislərin hazırlanması işi təşkil edilmişdir.

İstər o illərdə, istərsə də indi cənab Heydər Əliyev cəmiyyətin bütün təbəqələrində qanunun müqəddəs tutulmasını, dövlət işində çalışan şəxslərin qanunlara dönmədən əməl etməsini əsas tələb kimi irəli sürmüş, rüşvətxorluğa və korrupsiyaya qarşı qəti mübarizə apararaq öz prinsipiallığından heç vaxt dönməmiş, dövlət qulluqçularına tələbkarlığını qətiyyən azaltmamış və bu gün də həmin prinsiplərlə, həmin tələbkarlıqla bu işi davam etdirir, başqalarından da özü kimi fədakarlıq, saflıq və işgüzarlıq tələb edir. Prezidentin Elmlər Akademiyasının işçiləri ilə görüşündə dediyi fikirlər bir daha sübut edir ki, dövlət qulluğunda ən əsas prinsip qanunun aliliyidir. Həmin görüşdə Prezident demişdi: *"... Heç kəsə özbaşınalıq etmək imkanı vermək olmaz. Qanun, qanunun aliliyi, qayda hamı üçün eyni olmalıdır. Heç kəs özü üçün bir xüsusi qanun icad edə bilməz. Bizim*



*dövlətimiz var, dövlətin qanunları var, hamı dövlətin qanunlarına tabe olmalıdır, qanunlara riayət etməlidir".*

Bu cəhəti ölkə Prezidenti 2000-ci il aprelin 26-da keçirilən müşavirədə də xüsusi qeyd etmişdir: *"Sağlam mənəviyyat... bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu, yoxdursa, o insan nə qədər yaxşı işləyirsə işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələbimiz isə qanundur, qanunun aliliyidir. Mənəviyyatın da hamısı qanunun içərisindədir".*

Bir sözlə, respublika rəhbərliyi tərəfindən bu məsələlərə böyük diqqət yetirilir və "Dövlət qulluğu haqqında" Qanundan irəli gələn vəzifələrin həyata keçirilməsi və ölkəmizdə yeni əsrin kadrlarının formalaşdırılması üçün ciddi işlər aparılır. Bu sahədə işin əsas məqsədi respublikada kadrlarla iş proseslərinin düzgün tənzimlənməsi, son nəticədə bunun cəmiyyətin həyatına müsbət təsir göstərməsi, fəaliyyət qabiliyyətli dövlət qulluğunun və səmərəli kadr siyasətinin formalaşmasıdır. Bu isə sadə məsələ deyildir. Burada həm dövlət qulluğunun nəzəriyyəsi və təşkili, dövlət kadr siyasətinin və onun reallaşdırılması mexanizmi, həm də dövlət xidmətində çalışanların özünün idarə olunması məsələləri işlənib hazırlanmalıdır.

Hər bir ölkənin dövlət qulluğunu təşkil etməkdə, dövlət qulluqçularını hazırlamaqda öz yanaşma metodları vardır. Bu, həmin ölkənin milli mentalitetindən, mədəniyyətindən, tarixindən, ənənələrindən, siyasi sistemindən və bir çox başqa amillərdən asılıdır. Ona görə də ölkəmizdə dövlət qulluğunun yenidən təşkilində və bu sahədə islahatların aparılmasında bunları nəzərə almayaraq kor-koranə nəyisə götürüb tətbiq etməkdən söhbət gedə bilməz. Biz bu sahədə inkişaf etmiş ölkələrin, habelə qonşu dövlətlərin təcrübəsini diqqətlə öyrənməklə yanaşı, həm də onu öz reallıqlarımıza uyğunlaşdırmağı, bizim şəraitə uyğun tətbiq etməyi və müəyyən təkamül prosesini gözləməyi bacarmalıyıq.

Dövlət qulluqçusunun əsas keyfiyyətləri cəmiyyətin ümumi səviyyəsi və tələbləri əsasında formalaşır. Onun yaşadığı və yetişdiyi mühitdə hansı əhval-ruhiyyə hökm sürürsə, bu əhval-

ruhiyyə onun fəaliyyətində və xarakterində özünü göstərir. Burada istər-istəməz kadr məsələlərinin həllinə və kadr siyasətinin aparılmasına nəzər salmaq lazım gəlir.

Respublika Prezidenti 1999-cu ildə YAP-ın I qurultayında qeyd etmişdir: *"...Dövlətimizi, hökumətimizi, iqtisadiyyatımızı, həyatımızın bütün sahələrini inkişaf etdirmək üçün bizə müasir tələblərə cavab verən kadrlar lazımdır. Bizim gərək gənc kadrlarımız üzə çıxsın, özlərini müxtəlif sahələrdə sınaqdan keçirsin, təcrübə toplasın və XXI əsrdə onlar bizim bu gördüyümüz işlərin, yaratdığımız bünövrənin, təməlin üzərində qalxan, ucalan və böyük bir dövlətə çevrilən Azərbaycanı irəli aparsınlar".*

Müasir tələblərə cavab verən kadrların olması bir çox amillərdən asılıdır. Sovet dövründə belə bir aforizm formalaşmışdır: "Hər şeyi kadrlar həll edir". Bu gün dövlət qulluqçusu adlandırdığımız kadrlar cəmiyyətin həyatında hər şeyi olmasa da, çox şeyi həll edir və yəqin ki, yaşadığımız yeni əsrdə də bu məsələ aktual olaraq qalacaqdır. Lakin yeni əsrin yeni tələbləri bütün sahələrdə olduğu kimi dövlət qulluğunda da özünü göstərəcəkdir. Bu cəhətdən cəmiyyətdə gedən kadr proseslərinin öyrənilməsi, onların istiqamətləndirilməsi böyük əhəmiyyət kəsb edir. Kadr proseslərinin həyata keçirilməsinin bir sıra obyektiv şərtləri, o cümlədən siyasi, iqtisadi, sosial və subyektiv amilləri vardır. Bütövlükdə, bunlar cəmiyyətin yetginliyindən, dövlət orqanlarının təşkili mədəniyyətindən, bu orqanların elmin və praktikanın nailiyyətlərinə uyğun olaraq kadr proseslərini istiqamətləndirmə imkanlarından, habelə işçilərin sosial statusundan və rolundan, onların işgüzarlıq və mənəvi keyfiyyətlərindən, həyat tərzindən, peşəkarlığının inkişafından ibarətdir. Bu mənada, kadr proseslərinin məzmununun, spesifikasının, istiqamətinin, mərhələlərinin müəyyən edilməsində dövlət orqanlarının böyük rolu vardır və olacaqdır.

Kadr proseslərinin idarə olunmasının idarəetmə elminin digər sahələrindən fərqli olaraq öz texnoloji spesifikası vardır. Kadr proseslərinin idarə olunması mahiyyətcə cəmiyyətdə hakimiyyət bölgüsünün tənzimlənməsi, texnoloji cəhətdən isə kadr



proseslərinin reallaşdırılması üçün şərait yaradılması, onun istiqamətləndirilməsi deməkdir.

Yeni əsrdə dövlət qulluqçusu üçün etalon nə hesab oluna bilər?

Birincisi, dövlət qulluqçusu peşəkar olmalı, cəmiyyətə xidmətə yönəlmiş müəyyən mənəvi mövqeyə malik olmalıdır. Belə adamları axtarıb tapmaq, onları formalaşdırmaq lazımdır.

İkincisi, dövlət qulluqçusu fəal həyat mövqeyi tutan, kollektivdə və sərt reqlamentləşdirilmiş inzibati mühitdə işlədiyini başa düşən şəxs olmalıdır. Dövlət qulluğu reqlamentləşdirilmiş fəaliyyətdir və heç də hamı işin belə xarakterinə dözə bilmir.

Xüsusi qeyd etmək lazımdır ki, dövlət qulluqçusunun peşəkarlığı və bu peşəkarlığın konstruktiv olması vacibdir. Peşəkarlığın qiyməti onun mənəvi istiqaməti ilə müəyyən olunur. Çox yüksək peşəkarlıq keyfiyyətlərinə malik olmaq mümkündür. Ancaq onlar cəmiyyətin və dövlətin mənafeyinə xidmətə tabe edilməyibsə, çətin ki, belə adam dövlət qulluğuna yararlı olsun. Belə peşəkarlıq hətta bəzən sosial sarsıntıların səbəbinə çevrilir.

Müstəqilliyimizin ilk illərində, Ayaz Mütəllibovun və xüsusilə Xalq Cəbhəsi-Müsavat cütlüyünün hakimiyyətləri dövründə biz belə destruktiv peşəkarlığın nəticələrini müşahidə etmiş, bu cür kadrların fəaliyyətinin nəyə gətirib çıxardığının canlı şahidi olmuşuq. *Azərbaycan Respublikası Prezidentinin 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına 2000-ci ilin dekabrında etdiyi müraciətində göstərdiyi kimi, "1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkandan yaranmış müstəqil dövlətimiz qəsdən, yaxud səriştəsizlikdən yaranan iradəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm, ya olum" dilemması qarşısında qalmışdı".*

Göründüyü kimi, həmin dövrdə kadr məsələlərində yol verilən volyuntarizm və səriştəsizlik peşəkarlığın əhəmiyyətini istər-istəməz heçə endirmişdi. Unutmaq olmaz ki, keyfiyyətli dövlət aparatı keyfiyyətli işçilərdən, yəni peşəkarlardan, mənəviyyatca

saf, xalqına, dövlətçiliyə sədaqətli, işgüzar və zəhmətkeş adamlardan yarana bilər. Burada şəxsi münasibətlər və mənafelər deyil, ümumi mənafelər, dövlət mənafeləri üstün tutulmalı, səriştəli və peşəkar kadrların dövlətdən və rəhbərlikdən incik salınmasına yol verilməməlidir. Bu, heç də o demək deyildir ki, peşəkar işçinin müxtəlif siyasi oyunlara qoşulmasına, mənəvi və əxlaqi qüsurlarına, təmsil etdiyi iqtidara qarşı qeyri-səmimiliyinə göz yummaq lazımdır.

Dövlət qulluqçularının peşəkarlığının vacib olduğunu hörmətli Prezidentimiz də dəfələrlə qeyd etmiş, xüsusilə iqtidar partiyası olan YAP üzvləri qarşısında bu sahədə ciddi tələblər qoymuşdur. YAP-ın I qurultayında o, YAP üzvlərinin hakimiyyətin müxtəlif sahələrində, iqtisadiyyatda və başqa orqanlarda özlərinə yer tapmalı olduğunu göstərməklə yanaşı, qeyd edirdi ki, *"onlar keyfiyyətcə buna cavab verən adamlar olmalıdırlar"*. Göründüyü kimi, Prezident siyasi əqidəni, sədaqəti, mənəvi saflığı yüksək qiymətləndirməklə bərabər, peşəkarlığı ən əsas göstəricilərdən biri hesab edir. Çünki müasir dünyanın mənzərəsi və aparılan araşdırmalar sübut etmişdir ki, cəmiyyətdə maksimum əmək məhsuldarlığı yalnız insanların əksəriyyəti daha çox qabiliyyəti olduğu peşələrdə və sahələrdə çalışdıqda əldə olunur.

YAP-ın 2001-ci ilin noyabrında keçirilmiş II qurultayında bir daha bu məsələyə qayıdan respublika Prezidenti partiyanın keyfiyyətcə yüksəlməsini ən əsas nəticə hesab edərək, Azərbaycan cəmiyyətinin qaymağının cəmləşdiyi bir partiyanın üzvlərindən bütün sahələrdə biliklərini və səviyyələrini artırmağı tələb etmişdir: *"Əgər o, bu gün böyük bir iş bilən adamdırsa, alimdirsə, gərək sabah ondan da yüksək alim olsun, yaxud ondan da yüksək mühəndis olsun, ondan da yüksək aqronom, ondan da yüksək ticarətçi, biznesmen olsun və s."*.

Dövlət qulluqçusunun mənəvi keyfiyyətlərindən danışarkən, ilk növbədə, onun şərəf və ləyaqəti göz önünə gəlir. Şərəf və ləyaqət əsrlər boyu insanların ən çox diqqət yetirdiyi məsələlərdən biri olmuşdur. Müxtəlif dövrlərin tanınmış filosofları və dövlət xadimləri bu məsələlərə xüsusi yer ayıraraq, şərəfi vətəndaş şərəfinə, qulluq şərəfinə, hərbi şərəfə, kişi və



qadın şərəfinə və s. bölmüş, onu qoruya bilən insanlara xüsusi hörmət bəsləmişlər.

İnsan harada və hansı vəzifədə işləməsindən asılı olmayaraq, onun üçün vətəndaşlıq şərəfi birinci dərəcəli əhəmiyyət kəsb edir. Bu, insanı öz Vətəninin mənafeyi naminə səy göstərməyə, onun sərvətlərini artırmağa, şöhrətini yüksəltməyə, dövlətin qanunlarına hörmətlə yanaşmağa, ictimai asayişi qorumağa, qocalara və uşaqlara qayğı, vətəndaşların zəif müdafiə olunan təbəqələrinə kömək göstərməyə sövq edir. Şəxsiyyət qarşısında belə tələblərin qoyulması demokratik, hüquqi dövlətin müddəalarından irəli gəlir.

Qulluq şərəfi kateqoriyasının əhəmiyyəti təkcə şəxsiyyətin özü tərəfindən dərk edilib qiymətləndirilmir. Dövlət qulluğu göz qabağında olduğundan dövlət qulluqçularının fəaliyyəti, onların peşəkarlıq, işgüzarlıq və şəxsi keyfiyyətləri daim ictimaiyyətin diqqət mərkəzindədir. Yəni qulluq şərəfi başqalarının nəzərində o deməkdir ki, müəyyən vəzifə tutan şəxs həqiqətən bunun üçün zəruri keyfiyyətlərə malikdir və bütün hallarda öz xidməti vəzifələrini dəqiq icra edir.

Etiraf etmək lazımdır ki, ictimai rəydə müasir məmurlar (qulluqçular) barəsində təsəvvürlər indi birmənalı deyildir. Cəmiyyətin bir qismi dövlət qulluqçusuna bürokrat kimi baxır və belə hesab edir ki, onların bir çoxu şəxsi mənafeyini və vəzifə ambisiyalarını üstün tutur. Bir qisim adam isə belə hesab edir ki, dövlət qulluqçuları vicdanlı və davranışca qüsursuz insanlardır. Yaddan çıxarmaq olmaz ki, dövlət qulluqçusunun şərəf və ləyaqətini müəyyən edən amillərdən biri də onun prinsipiallığı, bir insan kimi öz mənliyinə hörmət etməsi, ikiüzlülük və s. naqis cəhətlərdən uzaq olmasıdır. Dövlət qulluqçusu şərəf və ləyaqət hissini uca tutursa, həmkarlarının nöqsan və qüsurlarını onlara cəsarətlə bildirməli, bu barədə açıq söhbət aparmalıdır. O bilməlidir ki, ləyaqətli insanlar məhz belə hərəkət edirlər. Şərəf sözü qulluqçu üçün abstrakt anlayış olmamalı, onun gündəlik meyarına çevrilməlidir. Bu cəhət dövlət qulluqçusunun insani keyfiyyətlərindən biri olmalıdır və dövlət qulluğunda yüksək pillə tutan şəxslər qulluqçularda prinsipiallıq, öz şərəf və

ləyaqətinə hörmət hisslərinin tərbiyə edilməsinə, onların arasında sağlam ab-hava yaradılmasına ciddi yanaşmalıdırlar.

Dövlət qulluqçusu öz fəaliyyətində humanizm, sosial ədalət və insan hüquqları prinsiplərinə əsaslanan mənəvi normaları rəhbər tutmalıdır. Dövlət qulluqçusu üçün peşəkarlıq, işgüzarlıq və digər keyfiyyətlərlə yanaşı mənəviyyat birinci sırada durmalıdır. Respublika gənclərinin I forumunda Azərbaycan Prezidenti cənab Heydər Əliyev bunu gənclərimiz qarşısında xüsusi vəzifə kimi qoymuşdur. O demişdir: *"Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir. Mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz".* Mənəvi saflıq, vicdanlılıq və təmənnasızlıq dövlət qulluğunda məcburi davranış qaydalarıdır. Vəzifəli şəxsin heç bir yolla ələ alına bilməməsi onun qulluq fəaliyyətinin əsas şərtidir. Korrupsiyaya uğramış dövlət qulluqçusu heç vaxt öz işini və xidməti vəzifələrini lazımınca yerinə yetirə bilməz. Dövlət qulluğuna girmək və bu sahədə çalışmaq öz borcunu və məsuliyyətini dərindən başa düşməyi tələb edir. Dövlət qulluqçusu öz vəzifə borcunu vicdanla, ən başlıcası, şəxsi məsuliyyət hissi ilə yerinə yetirməlidir. Vəzifəsini dəqiq və tam yerinə yetirmək dövlət qulluqçusunun öz şərəf və ləyaqətini qoruması üçün ən yaxşı vasitədir.

Dövlət qulluqçusu təkcə öz vəzifəsini səylə yerinə yetirməklə kifayətlənməməlidir, yalnız tutduğu vəzifəyə qarşı olan hər hansı hücumlara deyil, həmçinin dövlətçiliyimizə, dövlətin siyasətini bilavasitə həyata keçirən yüksək vəzifəli şəxslərə qarşı olan hücumlara da cəsarətlə reaksiya verməli, fəal həyat mövqeyi nümayiş etdirməlidir. Əks təqdirdə, deməli, ya dövlət qulluqçusu öz vəzifəsini dəqiq yerinə yetirmir, ya da ki, onun vəzifəsi heç kəsə gərək deyildir.

Müasir tələblərə cavab verən dövlət qulluqçusu obrazını necə təsəvvür etmək olar? Bu, bir qayda olaraq, 35-50 yaş arasında, idarəetmə işində təcrübəsi olan yüksək səviyyəli təhsilə malik səriştəli mütəxəssisdir. O, hüquqi incəliklərə bələddir, işi qanunlar və hüquq əsasında irəlilətməyə imkan verən qərarlar qəbul edə bilir və yollar tapır. Bir cəhət çox vacibdir ki,



vətəndaşların ona etdiyi müraciətlərə şübhə doğurmayan cavablar verə bilsin. Onun bütün hərəkətləri dəqiq və aydın olmalıdır. Təbiidir ki, bu da müvafiq qanunvericilik aktları ilə dəqiq müəyyənləşdirilməlidir. Dövlət qulluqçusu o zaman tam formalaşıb peşəkar və səriştəli mütəxəssisə çevrilə bilər ki, o, vəzifə pillələrində tədricən irəliləsin, işi hərtərəfli öyrənsin və yalnız öhdəsindən gələ biləcəyi işləri yerinə yetirsin. Vəzifə pillələrində həddindən artıq sürətlə irəliləməyə çalışmaq və dərindən öyrənmədiyi işdən yapışmaq nə dövlət qulluqçusunun, nə də cəmiyyətin xeyrinədir.

Dövlət qulluqçusunun üzərinə elə bir məsuliyyət qoyulur ki, o, bəzi nemətlərdən və istəklərdən özünü məhrum etməyi bacarmalıdır. Dövlət qulluğu ilə əlaqədar aktlarda bu sahədə məşğul olan şəxslərin fəaliyyətinə bir sıra məhdudiyyətlər qoyulması məhz onların mənəvi saflığının, o cümlədən şərəf və ləyaqətinin qorunmasına xidmət etməklə yanaşı, cəmiyyətdə ədalət prinsiplərinin yüksək tutulmasını, bütövlükdə insanların və cəmiyyətin mənafelərinin ön plana çəkilməsini təmin edir. Bu məhdudiyyətlər müvafiq qanunda öz əksini tapmışdır.

Dövlət qulluqçularının əsas vəzifələri kimi ilk növbədə qanunvericiliyin və dövlət orqanlarının qəbul etdikləri başqa normativ hüquqi aktların həyata keçirilməsi, verilmiş əmrlərin, sərəncamların və göstərişlərin yerinə yetirilməsi, müəyyən edilmiş qulluq reqlamentinə riayət olunması, başqa dövlət qulluqçularının işini çətinləşdirən və yaxud işlədiyi dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verilməməsi, vətəndaşların, müəssisə, idarə və təşkilatların müraciətlərinə vaxtında baxılması və öz səlahiyyətləri hüdudunda onların qərəzsiz həll edilməsi, dövlət sirrinin və qanunla mühafizə olunan digər sirrin həmişə, o cümlədən işdən çıxdıqdan və ya pensiyaya getdikdən sonra da saxlanılması, vəzifə borcunun yerinə yetirilməsi vaxtı daxil olan və ya vətəndaşların şəxsi həyatı, şərəfi və ləyaqəti ilə bağlı məlumatların gizli saxlanılması, hər il öz gəlirləri və əmlak vəziyyətləri haqqında maliyyə hesabatı verilməsi, qulluq etikası normalarına əməl edilməsi və sair nəzərdə tutulur. Bundan başqa

dövlət qulluqçusunun dövlət orqanlarında əlavə ödənişli vəzifə tutmağa, elmi və yaradıcılıq fəaliyyəti istisna olmaqla işlədiyi dövlət orqanının rəhbərliyinin icazəsi olmadan pedaqoji və başqa ödənişli fəaliyyətlə məşğul olmağa, qulluq vəzifələrini icra etdiyi dövrdə siyasi partiyaların fəaliyyətində, tətillərdə və dövlət orqanlarının işini pozan digər hərəkətlərdə iştirak etməyə, dini təbliğ etmək üçün dövlət qulluqçusunun statusundan istifadə etməyə ixtiyarı yoxdur.

Dövlət qulluqçusuna verilən digər məhdudiyyətlər isə intizam rejimi ilə əlaqədardır. Dövlət qulluqçusu qulluq etdiyi dövlət orqanında üçüncü şəxsin təmsilçisi və ya vəkili ola bilməz. Eyni zamanda o, bilavasitə öz tabeliyində olan və işinə nəzarət etdiyi orqanın da təmsilçisi ola bilməz.

Dövlət qulluqçusunun ən mühüm xüsusiyyətlərindən biri insan hüquqlarının qorunmasını və onların icrasını təmin etməkdən ibarətdir. Bu cəhətdən İnsan Hüquqları Bəyannaməsinin 50 illiyi münasibətilə keçirilmiş müşavirədə cənab Heydər Əliyevin dediyi kimi, Azərbaycan dövləti, hökuməti Azərbaycanda insan hüquqlarının qorunmasını özünün əsas vəzifəsi hesab edir və bu prinsiplə yaşayacaq, işləyəcəkdir. İnsan haqlarının qorunmasında hakimiyyət orqanlarının, o cümlədən dövlət qulluqçularının üzərinə çox böyük vəzifələr düşür. Çünki hakimiyyət orqanları, hakimiyyət orqanlarında vəzifə daşıyan insanlar, vətəndaşlar insan hüquqlarının qorunması və təmin olunması üçün xüsusi məsuliyyət daşıyırlar. Cənab Prezident çox haqlı olaraq göstərir ki, əgər vəzifəli şəxslər, hakimiyyət orqanlarında çalışan insanlar insan hüquqlarının qorunmasını özlərinin əsas vəzifəsi kimi dərk edə bilsələr, biz çox nailiyyətlər əldə edərik. O, dəfələrlə bəyan etmişdir ki, bu məsələni diqqət mərkəzində saxlayacaq və hər bir vəzifəli şəxsin işini onun bu sahədəki vəzifələrini yerinə yetirməsi ilə qiymətləndirəcək. Doğrudan da, əgər vəzifəli şəxslər vətəndaşların hüquqlarının qorunmasına ciddi yanaşsalar, onların qarşısında olan vəzifə borclarını layiqincə yerinə yetirsələr, cəmiyyətdəki narazılıqlar kəskin şəkildə azalmış olar. Bu gün hər bir vəzifəli şəxs, hər bir dövlət qulluqçusu bilməlidir ki, Azərbaycan dövləti artıq insan hüquqlarının qorunmasına dair



bir çox beynəlxalq sənədlərə qoşulmuş, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsini imzalamışdır. Bu sahədə hələ, təbiidir ki, bir sıra həll olunmamış problemlər də mövcuddur. Lakin ölkədə hazırlanmış qanunvericilik bazası və dövlət quruculuğu sahəsində görülən işlər bunu mütləq təmin edəcəkdir. "İnsan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli Fərmanı isə Azərbaycan dövlətinin bu məsələyə nə qədər böyük əhəmiyyət verdiyini əyani sübut edir.

Dövlət qulluqçusu vətəndaşların hüquqlarını qorumaq üçün, ilk növbədə, bu hüquqi normaları dərindən öyrənməlidir. Yəni vətəndaşlar öz hüquqlarını bilmək və onun qorunmasını tələb etmək hüququna malikdirsə, dövlət qulluqçusu bu hüquqları hər bir vətəndaşa nisbətən daha yaxşı öyrənməli və onun tətbiqini təmin etməlidir. Əgər vətəndaşlar qanunu bilmirlərsə, onlardan qanuna tabe olmağı tələb etmək də ədalətli sayıla bilməz. Belə hallarda dövlət qulluqçusu vətəndaşla xüsusi qayğı və təmkinlə işləməyi, onun hər hansı məsələdə nə dərəcədə haqlı olub-olmadığını izah və sübut etməyi bacarmalıdır. Burada təzyiq və zor göstərmək üsullarından istifadə etmək yaramaz. Hər bir dövlət qulluqçusu ilk növbədə çalışmalıdır ki, öz fikrinin doğru, düzgün olduğunu sübut edə və insanları bu fikrə şüurlu surətdə inandıra bilsin.

Dövlət qulluqçusunun da ilk növbədə vətəndaş və insan olduğunu heç vaxt unuda bilmərik. Yəni qanunla müəyyənləşdirilən prinsiplərə və meyarlara insanın necə əməl etməsi onun aldığı tərbiyədən, təhsildən, mənəvi saflığından, vətənpərvərliyindən, vicdanından, öz işinə və davranışına məsuliyyətlə yanaşmasından, səmimiliyindən, şəxsi ədavət, paxıllıq, ikiüzlülük hisslərindən uzaq ola bilməsindən, şəxsi mənafelərini ümumi mənafelərə tabe etmək bacarığından və istəyindən asılıdır. Əgər dövlət qulluqçusu bu keyfiyyətlərə, tutduğu vəzifə üçün tələb olunan bilik səviyyəsinə və intellektual səviyyəyə malik deyilsə, zəhmətsevər və işgüzar deyilsə, onun dövlət qulluqçusu olmaq iddiası əbəsdir.

Bu yazıda yeni əsrdə dövlət qulluğunun və dövlət qulluqçularının bəzi cəhətlərinə toxunulsa da bütün məsələlərin əhatə edildiyini demək olmaz. "Dövlət qulluğu haqqında" Qanun tam tətbiq olunduqca yeni tələblərin və təkliflərin ortaya çıxacağı, bunların daha ətraflı şərh olunacağı şübhəsizdir.

*"Xalq qəzeti"*
*17 yanvar 2002-ci il*



# DÖVLƏT QULLUQÇUSUNUN ƏMƏYİ NECƏ DƏYƏRLƏNDİRİLİR?

**Müsahibimiz Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Ümumi şöbəsinin müdiri, Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü Süleyman İsmayılovdur.**

***— Süleyman müəllim, "Dövlət qulluğu haqqında" Qanunla bağlı qəzetimiz vasitəsilə verdiyiniz şərhlər maraqla qarşılanıb. Bunu redaksiyaya daxil olan oxucu məktubları, çoxsaylı müraciətlər, telefon zəngləri də təsdiqləyir. Həmin müraciətlərdə dərin razılıq hissi ifadə olunmaqla yanaşı, qanunla əlaqədar bəzi məqamlara, o cümlədən dövlət qulluqçusunun əməyinin qiymətləndirilməsi məsələsinə aydınlıq gətirilməsi xahiş edilir. Məsələn, soruşurlar: Dövlət qulluqçusuna vəzifədə qulluq stajına görə verilən əlavə haqqın məbləği necə müəyyənləşdirilir?***

— Hər bir vətəndaş kimi, dövlət qulluqçusu da öz əməyi müqabilində məvacib alır. Dövlət məvacibi dövlət qulluqçusuna pulla ödənilən haqdır. Bu məvacibin məbləği səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, tələb olunan peşəkarlıq səviyyəsindən, vəzifədə qulluq stajından asılıdır. Dövlət məvacibi, daha konkret desək, vəzifə maaşından, mükafatlardan və vəzifə maaşına əlavələrdən ibarətdir. Bu əlavələr ixtisas dərəcəsinə, qulluq stajına və sair amillərə görə verilə bilər.

"İcra hakimiyyəti orqanlarında dövlət qulluqçusuna vəzifədə qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi" Qaydaları Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Dövlət qulluğu haqqında" Qanunun icrası ilə bağlı imzalanmış aktlardan biridir. Bu qaydalar qanunun müvafiq maddəsinə uyğun olaraq təsdiq edilmişdir. Orada

göstərilir ki, dövlət qulluqçusuna vəzifədə qulluq stajına görə, xidmətin ikinci ilindən başlayaraq hər ay əlavə haqq verilir və həmin haqq hər iki ildən bir artırılır. Haqqın məbləğini qanunvericilik və müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Qaydalarda göstərilir ki, dövlət qulluqçusuna bu əlavə haqq aylıq vəzifə maaşına nisbətən faizlə təyin olunur. Təsdiq edilmiş faizlər 1 ildən 3 ilədək qulluq stajına görə aylıq vəzifə maaşının 5 faizi və sonrakı hər iki il üçün 2 faizi həcmində artırılır. Qulluq stajı 25 ildən yuxarı olduqda əlavə haqq aylıq vəzifə maaşının 30 faizini təşkil edir. Həmin vəsait dövlət qulluqçusunun işlədiyi dövlət orqanı üçün dövlət büdcəsində nəzərdə tutulmuş əmək haqqı fondu hesabına verilir.

***— Dövlət qulluqçusunun qulluq stajı dedikdə, nəyi başa düşmək lazımdır və bu staj hesablanarkən hansı dövrlər nəzərə alınır?***

— Qaydalarda göstərildiyi kimi, burada dövlət qulluqçusunun tutduğu vəzifədə çalışdığı dövr, dövlət qulluqçusu digər dövlət qulluğu vəzifəsinə keçirildikdə və qəbul edildikdə, əvvəlki dövlət qulluğundakı qulluq stajı, dövlət qulluğu vəzifəsinə qəbul olunmuş şəxsin həmin vəzifədə sınaq müddəti bu stajın hesablanmasında əsas götürülür. Eyni zamanda, məhkəmə və ya müvafiq səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş məcburi işburaxma dövrü, vəzifəsi və əmək haqqı saxlanmaq şərtilə, dövlət qulluqçusunun dövlət qulluğundan ayrıldığı və əmək qabiliyyətini müvəqqəti itirdiyi müddət və ödənişli məzuniyyət dövrləri də qulluq stajı hesablanarkən nəzərə alınır. Digər fasilələr qulluq stajına daxil edilmir.

***— Stajın hesablanmasını kim həyata keçirir və qanun qüvvəyə minənədək həmin şəxsin qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında, habelə respublikanın hüdudlarından kənarda işlədiyi dövr nəzərə alınırmı?***



— Stajın hesablanmasını dövlət qulluqçusunun qulluq etdiyi dövlət orqanı həyata keçirir və yuxarıda qeyd etdiyimiz dövrlər nəzərə alınır. Eyni zamanda, respublikanın hüdudlarından kənarda olan iş dövrü ora daxil edilir. Stajın hesablanması üçün əsas sənəd dövlət qulluqçusunun əmək kitabçasıdır.

Bir cəhəti də qeyd etmək istərdim ki, yeni qaydalara uyğun olaraq, bundan sonra qulluq stajına görə verilən əlavə haqq orta əmək haqqının hesablanması zamanı da nəzərə alınacaqdır.

***— Siz qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında iş stajı barədə qeyd etdiniz. Həmin qaydalar adlarını çəkdiyiniz orqanların bütün pillələrdən olan işçilərinə şamil edilirmi?***

— "Dövlət qulluğu haqqında" Qanunda qeyd olunduğu kimi, bu qanun müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan müəssisələrin işçilərinə şamil edilmir. Bu işçilərin qulluğu ilə bağlı məsələlər Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə tənzimlənir. Daha konkret desək, haqqında danışdığımız qaydalar yalnız "Dövlət qulluğu haqqında" Qanunun müddəalarının şamil edildiyi şəxslər barəsində tətbiq olunur.

***— Qulluq stajının müəyyən edilməsi zamanı yarana biləcək mübahisələrin həlli barədə nə deyə bilərsiniz?***

— Təbiidir ki, burada müəyyən fikir ayrılıqları, mübahisələr yaranması mümkündür. Qaydalarda belə mübahisələrin həlli Dövlət Qulluğunu İdarəetmə Şurasına həvalə olunur. Bu məsələlər daha konkret şəkildə şuranın əsasnaməsində öz əksini tapacaqdır.

*"Xalq qəzeti"*
*12 fevral 2002-ci il*

# YAPONİYADA DÖVLƏT QULLUĞU SİSTEMİ

*Müsahibimiz Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ümumi şöbəsinin müdiri, Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü Süleyman İsmayılovdur.*

**Bu ilin may-iyun aylarında Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ümumi şöbəsinin müdiri, Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü Süleyman İsmayılov Yaponiyada olmuş, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin dövlət idarələrində kadr ehtiyatlarının idarə olunması sahəsində əsas problemlərlə bağlı Tokio şəhərində keçirdiyi seminarda iştirak etmişdir. Respublikamızda dövlət qulluqçularının böyük bir təbəqə təşkil etdiyini və hamımızın gündəlik həyatının həmin şəxslərin fəaliyyətindən çox asılı olduğunu nəzərə alaraq bu sahədə Azərbaycanda görülən işlər, Yaponiyanın müvafiq iş təcrübəsindən necə faydalanmağın mümkünlüyü barədə onunla söhbəti oxucularımızın diqqətinə çatdırmağı vacib sayırıq.**

— ***Süleyman müəllim, Siz respublikamızda dövlət qulluğunun təşkili barədə mətbuatda vaxtaşırı verdiyiniz müxtəlif məqalə və müsahibələrinizdə bu mövzunu şərh edirsiniz. Seminarın keçirilməsində məqsəd nə idi və orada hansı ölkələr təmsil olunurdu?***

— Seminar Yaponiya hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən təşkil olunmuşdu və orada MDB məkanında yerləşən Orta Asiya və Zaqafqaziya



respublikalarının nümayəndələri iştirak edirdilər. Azərbaycan Respublikasını isə təmsil etmək mənə nəsib olmuşdu. Seminarın bütün xərclərini öz üzərinə götürən Agentlik bu tədbiri yeni yaranmış müstəqil dövlətlərə yardım məqsədilə keçirirdi və üç həftə müddətində çox intensiv bir proqramla bu sahədə Yaponiya hökumətinin qanunvericiliyindən tutmuş praktik işlərə qədər hər şeylə seminar iştirakçılarını tanış etməyə çalışırdılar. Eyni zamanda hər bir ölkənin nümayəndəsi öz ölkəsinin bu sahədəki təcrübəsi və problemləri barədə məruzə ilə çıxış edir, bu məruzələr ətrafında geniş diskussiyalar aparılırdı. Bundan əlavə təşkilatçılar Yaponiyanın özü və ictimai-siyasi həyatı ilə seminar iştirakçılarını yaxından tanış etməyə səy göstərirdilər. Qeyd etməliyəm ki, olduqca səmərəli keçən bu seminar bütün iştirakçılar üçün çox faydalı oldu. Yaponiya dövlətinin bu sahədəki təcrübəsi həqiqətən öyrənilməyə layiqdir. Yaponiyanın özünə gəldikdə isə indiyə qədər oxuduqlarımız və eşitdiklərimizdən də artıq təəssürat yarandı. Həqiqətən Yaponiyanı bugünkü dünyanın möcüzəsi hesab etmək olar.

— ***Ümumiyyətlə, Yaponiya ilə Azərbaycan əlaqələri son vaxtlar necə inkişaf edir və onu qənaətbəxş hesab etmək olarmı?***

— Dünyada inteqrasiya proseslərinin genişləndiyi indiki şəraitdə ayrı-ayrı ölkələrin, o cümlədən yeni yaranmış gənc dövlətlərin qabaqcıl ölkələrlə qarşılıqlı əlaqələr qurmadan inkişaf etməsi çətindir. Ölkə rəhbərliyi Yaponiya ilə Azərbaycan arasında bütün sahələrdə təşəkkül tapmış əlaqələrə böyük əhəmiyyət verir. Bu əlaqələr Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra təşəkkül tapsa da Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 1998-ci ilin fevralında Yaponiyaya rəsmi səfərindən sonra xüsusilə geniş vüsət almışdır. Həmin səfər zamanı 8 mühüm sənəd imzalanmışdır, 1999-cu ilin fevralından Azərbaycan Respublikası ilə Yaponiya arasında iqtisadi əməkdaşlıq üzrə Dövlət Komissiyası fəaliyyət göstərir.

İndiyədək Yaponiya Azərbaycana 48 milyard iyen, təqribən 420 milyon ABŞ dolları məbləğində güzəştli kredit ayırmışdır.

Dünyanın bir çox aparıcı şirkətləri ilə yanaşı, Yaponiyanın bir sıra böyük şirkətləri də Azərbaycana kapital qoymağa başlamış, xüsusilə "İtoçu", "Mitsui", "Capeks" şirkətləri Azərbaycanın zəngin neft yataqlarının işlənilməsində yaxından iştirak edirlər. Bütövlükdə Azərbaycanın neft müqavilələrində Yaponiya şirkətlərinin iştirakı xarici iştirak payının 6,7 faizini təşkil edir. Yaponiya bu göstərici üzrə ABŞ, Böyük Britaniya və Rusiyadan sonra dördüncü yeri tutur. Neft müqavilələrində iştirak edən Yaponiya şirkətləri, ümumiyyətlə, 179,6 milyon dollar kapital qoymuş və artıq 71,6 milyon dollar gəlir əldə etmişlər. Biz sevinirik ki, bu əlaqələr başqa sahələrdə də gündən-günə genişlənir. Demək istəyirəm ki, Tokioda keçirilən bu seminarda iştirakım da ölkələrimiz arasında olan sıx əlaqələrin nəticəsidir.

***— Seminarda Sizin etdiyiniz çıxış necə qarşılandı və orada əsasən nə barədə məlumat verdiniz?***

— Seminarda geniş məruzə üçün vaxt olmasa da demək olar ki, Azərbaycan haqqında verdiyim məlumat ətrafında geniş müzakirə getdi. Yəni təkcə verilən məlumat deyil, eyni zamanda özümlə apardığım müxtəlif materiallar da seminar iştirakçılarına təqdim olunmuşdu. Burada "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu və onunla bağlı qəbul edilmiş digər sənədlər, respublikanın iqtisadi göstəriciləri, ictimai-siyasi vəziyyəti barədə təqdim olunan materiallar maraqla qarşılanır və bir çox suallar verilirdi. Mən öz çıxışımda Azərbaycanın tarixi, bu günü haqqında qısa məlumat verdikdən sonra əsas diqqəti respublikamızda dövlət qulluğunun müasir tələblər səviyyəsində təşkili üçün hazırlanan qanunvericilik bazasına və görülən real işlərə yönəltməyə çalışdım. Bu məlumatlar həm seminarın təşkilatçıları, həm də iştirakçıları tərəfindən rəğbətlə qarşılandı. Respublikada qəbul olunmuş müvafiq normativ hüquqi aktların, demək olar ki, müasir tələblər səviyyəsində olduğunu hamı etiraf etdi. Xüsusilə respublikada dövlət qulluğunun daha yaxşı təşkili, bu sahədə kadrların hazırlanması üçün görülən işlər müsbət qiymətləndirildi.



***— Yaponiya həqiqətən XX əsrin ikinci yarısında öz iqtisadi sıçrayışı ilə dünyanın möcuzəsi kimi tanınmışdır. Bunun əsas səbəblərini nədə axtarmaq lazımdır?***



— Həqiqətən Yaponiya İkinci Dünya müharibəsindən sonra dünyada görünməmiş inkişafa nail olmuşdur. 1889-cu ildə qəbul edilmiş cəmi 76 maddədən ibarət olan və İkinci Dünya müharibəsinə qədər mövcud olan Yaponiya Konstitusiyasına Meydzi Konstitusiyası, yaxud Böyük Yaponiyanın imperiya Konstitusiyası deyirlər. 1947-ci ilə qədər qüvvədə olan bu Konstitusiya ilə dövlətin idarəetmə səlahiyyətləri imperatora məxsus olmuş, parlamentin mövqeləri zəif olmuş, insan hüquqları, insan azadlıqları və seçki hüquqları nisbətən məhdud olmuşdur. Həmin Konstitusiyaya görə yalnız 20 yaşından yuxarı kişilərin səsvermə hüququ vardı. Yaponiyanın yeni Konstitusiyası 1947-ci il mayın 3-də qüvvəyə minmiş və cəmi 103 maddədən ibarətdir. Bu Konstitusiya ilə imperator sistemi saxlanmaqla xalqa

suveren hüquqlar verilmiş, demokratikləşməyə yol açılmış, müharibə aparmaqdan qəti imtina edilmiş, insanın əsas hüquqlarına hörmət prinsipi elan olunmuşdur. Artıq 20 yaşına çatmış bütün kişilərə və qadınlara səsvermə hüququ verilmişdir.

Dövlət hakimiyyəti bölgüsü Konstitusiyaya görə üç qola ayrılır: qanunvericilik hakimiyyətinə, məhkəmə hakimiyyətinə və inzibati hakimiyyətə. Ölkə Parlamenti iki palatadan: Nümayəndələr Palatasından (480 nəfər) və Müşavirlər Palatasından (242 nəfər) ibarətdir. Məhkəmə hakimiyyəti 3 pilləlidir: 50 yerli məhkəmə, apellyasiya məhkəməsi kimi fəaliyyət göstərən 8 yuxarı məhkəmə və axırıncı apellyasiya məhkəməsi sayılan Ali Məhkəmə. Bundan başqa 50 ailə məhkəməsi, 452 inzibati məhkəmə fəaliyyət göstərir. İdarəetmə sistemində prezident sistemi tətbiq edilməmiş, Nazirlər Kabinetinin parlament sistemi yaradılmışdır ki, bu da qanunvericilik və icra hakimiyyətinin səlahiyyətlərinin müəyyən dərəcədə sintezinə imkan vermişdir. Parlamentdə əksəriyyət təşkil edən konkret qrup ali rəhbər dövlət orqanını formalaşdırır. Parlamentdə əksəriyyət təşkil edən partiyanın rəhbəri isə baş nazir seçilir. Beləliklə, hökumət parlamentdən etimad mandatı alaraq öz vəzifələrini icra edir. Konstitusiyaya görə Yaponiyada imperator xalqın iradəsi ilə dövlətin və xalqın birliyinin simvoludur və suverenlik xalqa məxsusdur. İmperator Parlamentin təyin etdiyi baş naziri və Nazirlər Kabinetinin təyin etdiyi Ali Məhkəmənin baş hakimini təsdiq edir.

Yaponiyada dövlətin idarə olunması Nazirlər Kabineti tərəfindən həyata keçirilir və baş nazirin çox geniş səlahiyyətləri vardır. O, Nazirlər Kabinetinin üzvü olan dövlət nazirlərini təyin edir, Nazirlər Kabinetinin təsdiq etdiyi xətt əsasında dövlət aparatının bütün bölmələrinə rəhbərlik edir. Bütövlükdə dövlət orqanları Nazirlər Kabinetinin dəftərxanasından və 12 nazirlikdən ibarətdir. Nazirlər Kabinetinin tərkibi isə baş nazirdən və 17 dövlət nazirindən ibarətdir. 12 dövlət naziri 10 nazirliyə, Milli Müdafiə İdarəsinə və Dövlət İctimai Təhlükəsizlik Komissiyasına rəhbərlik edir. Beşdən artıq dövlət naziri dövlət islahatları, iqtisadi-maliyyə, elmi-texnoloji, ərazi məsələlərinə



aid xüsusi məsələlərə nəzarəti həyata keçirir. Nazirlər Kabineti haqqında Qanunda göstərilir ki, dövlət nazirlərinin sayı 14 həddində olmalı, əlavə olaraq 3 dövlət naziri isə xüsusi səlahiyyətləri yerinə yetirmək üçün təyin olunmalı və ümumilikdə dövlət nazirlərinin sayı 17-dən artıq olmamalıdır.

***— Yaponiya kimi böyük bir ölkə üçün nazirliklərin sayı az deyildirmi? Bildiyimizə görə, Azərbaycanda nazirlik, komitə və digər mərkəzi idarələrin sayı bundan çoxdur.***

— Yaponiyanın əhalisi 127 milyona yaxındır, ərazisi isə o qədər də böyük deyildür. Bununla belə dövlət qulluğunda çalışan şəxslərin sayını mümkün qədər azaltmaq üçün sistemli və müntəzəm islahatlar aparılır. Müqayisə üçün bəzi faktları, bəzi rəqəmləri göstərək. Dövlət qulluqçularının ümumi sayı 4 milyon 340 min nəfərdir, o cümlədən mərkəzi orqanlarda dövlət qulluqçularının sayı 1 milyon 100 min nəfər, yerli hakimiyyət orqanlarının qulluqçularının sayı isə 3 milyon 250 min nəfərdir.

1998-ci ilin tədqiqat materiallarına görə əhalinin hər min nəfərinə Yaponiyada 36 nəfər, Böyük Britaniyada 76 nəfər, Fransada 87 nəfər, ABŞ-da 67 nəfər, Almaniya Federativ Respublikasında 59 nəfər dövlət qulluqçusu düşür.

Respublikamızda mərkəzi icra hakimiyyəti orqanı funksiyasını prezident və onun İcra Aparatı, yuxarı icra hakimiyyəti orqanı funksiyasını respublika prezidenti tərəfindən təsdiq edilən Nazirlər Kabineti, 18 nazirlik, 12 dövlət komitəsi, 9 digər dövlət orqanı (cəmi 39) həyata keçirir. Respublikanın şəhər və rayonlarında isə bu funksiyanı prezident tərəfindən təyin edilən icra hakimiyyəti başçıları həyata keçirirlər.

Ümumiyyətlə, respublikada bütün sahələrdə işləyən 4 milyona qədər adamın 24 min nəfəri bilavasitə dövlət qulluğunda çalışır.

2002-ci ilin dövlət büdcəsində mərkəzi icra hakimiyyəti orqanlarının (hüquq mühafizə orqanları istisna olmaqla) saxlanması xərcləri 6,7 faiz, o cümlədən yerli icra hakimiyyəti orqanlarının saxlanması xərcləri 1,8 faiz təşkil etmişdir.

Bələdiyyə orqanlarına 23 min nəfər üzv seçilmişdir, onlardan 2667-si sədr və bir o qədəri də müavin kimi fəaliyyət göstərir. Onların əksəriyyətinin ali təhsili vardır və çoxunun yaş həddi 50-ni keçmir.

Lakin respublikamızda son illərdə möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin rəhbərliyi ilə aparılan islahatlar tədricən dövlət orqanlarının və dövlət qulluqçularının sayını azaltmağa və bu sahədə işi təkmilləşdirməyə imkan vermişdir.

Yeni iqtisadi münasibətlərin formalaşması dövlət idarəetmə sistemində köklü islahatların aparılması ilə müşayiət olunur. Xüsusilə son illərdə aparılan islahatlar nəticəsində bir çox dövlət konserni və şirkəti, nazirlik, komitə və digər strukturlar ləğv edilmiş, mərkəzi icra hakimiyyəti orqanlarının səlahiyyət və funksiyaları bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırılmış, bir-birini təkrarlayan paralel strukturlar ləğv edilmiş, yeni yaradılan nazirlik və komitələrin səlahiyyətləri dəqiqləşdirilmişdir. Görülən bu tədbirlər idarəçiliyin sadələşdirilməsinə, idarəçilik kadrlarının məsuliyyətinin və səriştəsinin artırılmasına kömək etmişdir.

Təkcə onu qeyd etmək lazımdır ki, 1998-ci ildən sonra respublika Prezidenti idarəçilik sisteminin təkmilləşdirilməsi və mərkəzi icra orqanlarında struktur dəyişikliklərinin aparılması barədə 31-dən çox fərman və 20-dən çox sərəncam vermişdir. Yalnız 2001-ci ildə 21 nazirlik və idarə ləğv edilmiş, 7 nazirlik və idarə yenidən yaradılmışdır. Bunların nəticəsində həmin strukturlarda işləyənlərin sayı 1000 nəfərə qədər azaldılmışdır.

Yuxarıda göstərilən islahatların sistemli şəkildə keçirilməsi üçün respublika Prezidentinin 1998-ci il 29 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının dövlət idarəçiliyi sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyası yaradılmışdır. Həmin fərmanda göstərilmişdir ki, demokratikləşmə və bazar münasibətləri sahəsində islahatlar dövlət idarəçiliyinin səmərəliliyini artırmalı, iqtisadi fəaliyyət üçün beynəlxalq standartlara cavab verən hüquqi baza yaradılmasını təmin etməlidir.



— *Yaponiyada dövlət qulluğunu idarəetmə sisteminə rəhbərlik edən orqan mövcuddurmu?*

— Əlbəttə, belə bir orqan Yaponiyada hələ 1947-ci ildən mövcuddur. Bu, kadrlar üzrə mərkəzi dövlət inzibati orqanı kimi fəaliyyət göstərən Dövlət Kadrları Palatasıdır. Bu palatanın iki əsas funksiyası vardır. Birincisi, kadrların idarə olunmasında ədaləti təmin etmək, ikincisi, qulluqçuların mənafeyini müdafiə etmək. Palata həm də əsas əmək hüquqlarının məhdudlaşdırılması üzrə kompensator funksiyasını həyata keçirir, kadrların idarə edilməsi sahəsində siyasətin əsas standartlarını işləyib hazırlayır. Palata Nazirlər Kabinetindən asılı deyildir, o, üç səlahiyyətli müvəkkildən ibarət kollegial orqandır.

Yaponiyada dövlət qulluğu kadrlarının idarə olunması dedikdə, burada ömürlük məşğulluq, dövlət qulluğuna qəbul, işçilərin bölüşdürülməsi, vəzifədə irəli çəkilməsi, iş stajına görə xidmətdə irəliləməsi, başqa işə müntəzəm dəyişməsi, işdən azad edilməsi və s. məsələlər nəzərdə tutulur. Burada qulluğa müntəzəm və eyni vaxtda qəbul keçirilir. Yaponiyanın ali məktəblərində təhsil mart ayında başa çatır və buraxılış keçirilir. Bir qayda olaraq, şirkətlər, dövlət idarələri və digər təşkilatlar hər il aprelin 1-də ali məktəb və yüksək dərəcəli orta məktəb məzunlarını yeni işçi kimi işə qəbul edirlər. İşə ilk dəfə qəbul üçün diqqətlə seçmə aparılır. Dövlət Kadrları Palatası vahid qaydada açıq imtahan müsabiqələri keçirir, sonra isə hər bir nazirlikdə və idarədə söhbət-müsahibələr aparılır. Seçmə proseduru işə rəsmi qəbula bir il qalmış başlayır. Göstərdiyimiz məsələlərin hər biri ətrafında olduqca geniş danışmaq olar və bunun detalları çox maraqlıdır. Yəqin ki, növbəti söhbətlərimizdə bunlar barəsində daha ətraflı məlumat verərik.

— ***Siz qeyd etdiniz ki, Yaponiyada dövlət-inzibati orqanların təkmilləşdirilməsi üzrə islahatlar davam edir. Ümumiyyətlə, Yaponiyada dövlət qulluğunun idarə olunmasını təkmilləşdirmə mərhələləri barədə nə demək olar və bu mərhələlər bizdə hansı formada tətbiq oluna bilər?***

— Göstərdiyimiz kimi, bu ölkədə dövlət qulluğunun idarə olunmasının əhəmiyyətini çox düzgün və vaxtında dərk etmişlər və açıq demək lazımdır ki, Yaponiyanın bugünkü iqtisadi yüksəlişi məhz bu məsələyə düzgün yanaşılmanın nəticəsidir. Bu sahədə aparılan islahatların hüquqi əsası ölkənin yeni 1947-ci il Konstitusiyası ilə qoyulmuş, 1960-1970-ci illərdə iqtisadi inkişafın ən yüksək sürətlə davam etdiyi dövrdə bu islahatlar aparılmış, yüksək iqtisadi artım sürəti başa çatdırıldıqdan sonra yüksək həyati potensiala malik ümumi rifah dövlətinin qurulması üçün maliyyə-inzibati islahatlar həyata keçirilmişdir. Bu, 1980-ci illəri əhatə edir. 2000-ci ildə isə XXI əsrin tələblərinə cavab verən dövlət-inzibati sisteminin yaradılması üçün islahat aparılmışdır. 2001-ci ilin yanvarında mərkəzi nazirliklərin və idarələrin islahatı başlanmışdır. Aparılan yeni islahatların əsas istiqamətlərindən danışsaq, bunları belə qiymətləndirmək olar ki, şaquli tipli dövlət inzibatçılığının mənfi cəhətləri aradan qaldırılır, daha yığcam dövlət strukturu yaradılır. Əvvəlki mərkəzi orqanların sayı azaldılaraq artıq nazirliklərin sayı 22-dən 12-yə endirilmişdir. Dövlət idarəetmə sisteminə şəffaflıq verilməsinə, öz məsuliyyətini dərk etmə sisteminin formalaşdırılmasına, müstəqil hüquqi şəxslər sisteminin, siyasi qiymətvermə sisteminin tətbiqinə diqqət yetirilir. Daha yığcam inzibati sistemə keçilməsində ayrı-ayrı inzibati fəaliyyət növlərinin ləğv edilərək xüsusi sektora verilməsinə, təşkilat strukturunun və ştatlarının qaydaya salınmasına üstünlük verilir. Hazırda Yaponiyada bu sahədə qarşıya qoyulan vəzifələr XXI əsrdə yapon iqtisadiyyatına və cəmiyyətinə müstəqil və möhkəm fərdlərə arxalanmaqla mərkəzi nazirliklərin islahatının müsbət nəticələrini təmin etməkdən və dövlət idarəetməsinin vəziyyətini daha da yaxşılaşdırmaqdan ibarətdir. Bunların səciyyəvi xüsusiyyətləri yeni dövrün tələblərinə uyğun olaraq komplekslilik və çeviklik, xalqın müstəqilliyinə və sərbəst məsuliyyətinə hörmətlə yanaşılması, xalq üçün hər şeyin açıq və şəffaf olması, ölkə xalqının statusunun yüksək keyfiyyətini təmin edən dövlət-inzibati işin aparılmasıdır.



Təkcə 2001-ci ildə aparılan islahatlar nəticəsində nazirliklərin sayı demək olar ki, yarıbayarı azalmış, nazirliklərin, idarələrin daxili bölmələri kimi fəaliyyət göstərən katiblik və idarələr isə 128-dən 96-ya, şöbələr, sektorlar və onlara bərabər tutulan bölmələr 1166-dan 995-ə, məşvərətçi komissiyalar 112-dən 106-ya, xüsusi hüquqi şəxslər 92-dən 77-yə, sanksiyası olan hüquqi şəxslər 88-dən 81-ə enmişdir. Təkcə 2001-ci ildə səmərələşdirmə qaydasında ştatların ixtisarı nəticəsində 12575 ştat azalmış, əlavə olaraq isə 3304 yer açılmışdır. Ümumiyyətlə, 9271 nəfər ixtisar edilmişdir. 1997-ci ildən başlayaraq bu proses davam edir, lakin idarəetmə strukturunun təkmilləşdirilməsi və daha zəruri qurumların yaradılması nəticəsində dövlət qulluğunda çalışan peşəkar insanların əksər hissəsi işlə təmin olunur. Bütün bunlar elmi əsaslarla və ciddi tədqiqatlar nəticəsində hesablanaraq aparıldığı üçün dövlət qulluqçularının kütləvi surətdə işsiz qalması hallarına çox az yol verilir. Lakin hazırda nəzərdə tutullmuş islahatların həyata keçirilməsi nəticəsində yaxın dövrdə, o cümlədən 2002-ci ildə dövlət qulluqçularının ixtisarı və onların başqa sahələrə keçirilməsi şərti ilə ümumi sayın daha 4200 nəfər azaldılması planlaşdırılır. Maraqlı faktdır ki, 1968-ci ildən 2002-ci ilədək 35 il ərzində dövlət idarəetmə tələbatı ilə əlaqədar ştatların sayı 268 min nəfər artmış, eyni zamanda ştatlardan daha səmərəli istifadə edilməsi onların 342 min nəfər ixtisar olunmasına imkan vermişdir. Beləliklə, xalis ixtisar 74 min nəfəri əhatə etmişdir. Yaxın gələcəkdə də bu sahədə islahatların aparılacağı və bütövlükdə hökumətin yığcam şəklə salınması nəzərdə tutulur.

Göründüyü kimi, bu sahədə öyrəniləsi və tətbiq olunası məsələlər çoxdur və gələcəkdə belə düşünülmüş tədbirlərdən Azərbaycanda da istifadə olunması yalnız ümumi inkişafımıza kömək göstərər.

***— Seminarda ən çox hansı problemlər üzərində geniş dayanılmış və müzakirələr keçirilmişdir?***

— Seminarın olduqca səmərəli və məhsuldar keçməsi barədə çox danışmaq olar. Əsas mövzu isə yenə də dövlət qulluğu və dövlət qulluqçularından istifadə məsələləri idi. Daha çox maraq doğuran və geniş müzakirə olunan problem isə "Yaponiyada kadrların idarə edilməsinin və işçilərin potensialının inkişaf etdirilməsinin xüsusiyyətləri" oldu. Bu məsələnin həllinin yapon modeli ilə Avropa-Amerika modeli bir-birindən çox fərqlənir və indiyə qədər bunların hansının daha uğurlu olması ətrafında diskussiyalar getməsinə baxmayaraq, yapon modelinin üstünlüyü göz qabağındadır. Burada əsas cəhət odur ki, hər bir işçinin əsas xidməti vəzifələri ilə yanaşı əlavə xidməti vəzifələri də nəzərdə tutulur. Avropa-Amerika modelində xidməti vəzifələr daha konkret və dəqiq göstərilməklə işçilərin fəaliyyət dairəsini bir qədər məhdudlaşdırır. Yaponiya modelində isə ayrı-ayrı xidməti vəzifələr arasında sərhədlər bir qədər yayğın olub, onlara dəqiq hədd qoyulmur. Bu daha çevik model olub, hər bir işçinin öz vəzifəsindən başqa digər işləri də bacarmasını, lazım gəldikdə, işlədiyi struktur bölmənin hər bir işçisini əvəz etməsini, bir növ kollektiv məsuliyyət hissinin artırılmasını təmin edir. Qulluqçu işlədiyi idarənin, demək olar ki, bütün funksiyalarını bilməli və öz işini qurtardıqdan sonra əlaqədar struktur bölmənin də işində yaxından iştirak etməli və istənilən işçini əvəz etməyi bacarmalıdır. Yəni burada ayrı-ayrılıqda hər bir fərdin gördüyü işə yox, ümumi kollektivin əldə etdiyi nəticəyə qiymət verilir. Daha doğrusu, vəzifələr işçinin bacarıq və qabiliyyətinə görə müəyyənləşdirilir. Avropa-Amerika modelində isə vəzifələrə görə işçi qəbul edilir. Məhz kollektiv məsuliyyət və ümumi nəticə modelinə görə işin təşkilini təmin etmək üçün qulluqçu işlədiyi idarə və təşkilatın digər bölmə və strukturlarına da vaxtaşırı göndərilir. O, həmin strukturların işini öyrənməklə yanaşı, özünün potensialını da göstərə bilir və bu da işçinin irəliləyişi üçün perspektiv yaradır. Hətta əmək haqqı müəyyən edilərkən də yapon modelində əmək haqqı işçiyə görə təyin edilir. Avropa-Amerika modelində isə əmək haqqı konkret funksiyaya görə təyin edilir.



***— Təbiidir ki, bütün bu proseslər dəqiq müəyyənləşdirilmiş qanunvericilik bazası əsasında həyata keçirilir. Bu sahədə Yaponiyada qəbul edilmiş normativ hüquqi aktlar yəqin ki, çoxdur. Həmin aktlar barədə bir qədər ətraflı məlumat verə bilərsinizmi?***

— Bu da maraqlı məsələdir. Təbiidir ki, bu qədər zəngin təcrübəsi və ənənələri olan bir ölkədə başqa cür ola da bilməzdi. Öz dəqiqlikləri və yüksək dərəcədə icraçılığı ilə seçilən yaponlar dövlət qulluqçusunun bütün fəaliyyətini müvafiq normativ hüquqi aktlarla tənzimləmişlər. Belə qanunlar çoxdur, onların hamısı haqqında danışmaq mümkün olmasa da birinin üzərində daha geniş dayanmaq istərdik. Bu da məhz dövlət qulluqçuları haqqında qanundur. Bu qanunun əsas xəttini Yaponiya Konstitusiyasının müvafiq maddəsində verilmiş belə bir müddəa təşkil edir: "Bütün dövlət qulluqçuları qismən deyil, tamamilə xalqın qulluqçularıdır". Konstitusiyanın həmin müddəası müvafiq qanunun 96-cı maddəsində belə ifadə olunmuşdur: "Dövlət qulluqçuları bütün xalqın qulluqçusu kimi ictimai mənafelər üçün çalışmalı və bütün qüvvəsini işə sərf edərək öz qulluq vəzifələrinin icrasına sədaqətlə yanaşmalıdır".

Dövlət qulluqçularının vəzifələrinə gəldikdə, burada qanunla çox ciddi tələblər qoyulur. Şəxs işə yeni qəbul edilərkən dövlət qulluqçusu vəzifələrinin spesifikliyini dərk etməsini ondan tələb edirlər. Dövlət qulluqçusu qanuna və rəislərin əmrlərinə əməl etməlidir. Dövlət qulluqçusuna verilən əmrlər buna səlahiyyəti olan şəxslər tərəfindən qulluqçunun xidməti vəzifələri çərçivəsində olmalı, verilmiş əmr obyektiv cəhətdən hüquqa zidd xarakterdə olmamalıdır. Qanunun 98-ci maddəsində dövlət qulluqçularına tətil etmək qadağan olunur, Konstitusiyanın 28-ci maddəsində fəhlələrə birləşmək və qrup halında hərəkətlər etmək hüququ verildiyinə baxmayaraq dövlət qulluqçuları öz xalqının qulluqçusu kimi tətildə iştirak edə bilməzlər. Dövlət qulluqçusunun, dövlət məmurlarının, habelə bütövlükdə dövlət qulluğunun nüfuzuna xələl gətirən hərəkətlərə yol vermək qadağan olunur. Çünki bu, bütövlükdə dövlət fəaliyyəti sistemini

nüfuzdan salır. Hətta işdən kənar və işlə əlaqədar olmayan hallarda etdiyi nalayiq hərəkətlərə görə dövlət qulluqçuları barəsində özəl müəssisələrdə işləyən şəxslərə nisbətən daha sərt cəzalar müəyyənləşdirilmişdir.

Xüsusilə müəllimlərin, islah müəssisələri qulluqçularının, ədliyyə və polis işçilərinin, inzibatçıların, nəzarət qulluqçularının törətdiyi əməllərə daha ciddi yanaşırlar. Bu həmin şəxslərə cəmiyyətdə bəslənən böyük ümidlərin sarsıdılması kimi qiymətləndirilir. Etimadı itirməyə səbəb olan hərəkətlər edilməsinə görə dövlət qulluqçusu ciddi cəzalandırıla bilər. Bu tələblər o qədər sərtdir ki, hətta işdən kənar vaxtlarda olan hərəkətlər belə ciddi nəticələrə səbəb ola bilər. Məsələn, xidməti vəzifələri yerinə yetirərkən kobud ifadələr işlədilməsi, qulluq vəzifəsinin icrası gedişində pay qəbul edilməsi (ərzaq məhsulları, içkilər və s.), bazar günlərində sərxoş vəziyyətdə nəqliyyat vasitələrinin sürülməsi, qumar oyunlarına həvəs göstərilməsi, işdən kənar vaxtda kiməsə zədə yetirilməsi və başqa hərəkətlər qəti qadağandır. Dövlət qulluqçusunun vəzifələrindən biri də ona məlum olan məlumatı kənara yaymamasıdır. O, bütün diqqətini və potensialını xidməti vəzifələrinin yerinə yetirilməsinə yönəltməlidir.

Həmin qanunla dövlət qulluqçusunun siyasi fəaliyyətinə də məhdudiyyət qoyulur və göstərilir ki, dövlət qulluqçusu öz xalqına layiqincə xidmət etmək üçün xalqın qulluqçusu kimi siyasi cəhətdən neytral mövqedə durmalıdır. Eyni zamanda hər dəfə hökumət dəyişdikdə, dövlət qulluqçusu siyasi konyukturun təsirindən müdafiə olunmalıdır. Qanunda tələb olunur ki, hər hansı meyllərdən asılı olmayaraq onların mövqeyi sabit olsun və dəyişdirilməsinlər.

Dövlət qulluqçusuna qarşı qoyulan məhdudiyyətlərdən biri də onların xüsusi müəssisələrin işində iştirakıdır. Hətta qanunun 103-cü maddəsində bildirilir ki, Dövlət Kadrları Palatasının icazəsi olmadan dövlət qulluqçuları işdən çıxdıqdan sonra ən azı iki il onların əvvəlki beş il ərzində işlədikləri dövlət orqanları ilə sıx əlaqəli işləyən kommersiya müəssisələrində işə girə bilməzlər. Bundan məqsəd odur ki, dövlət qulluqçusu vəzifədə



olarkən müəyyən müəssisələrə kömək göstərməklə vəzifəsindən sui-istifadə edə bilməsin. Nəzərə alınır ki, həmin qulluqçular işlədikləri zaman belə müəssisələr üçün əlverişli şərait yarada bilərlər.

Dövlət qulluqçusuna əvəzçilik qaydasında işləməyə məhdudiyyət qoyulur. Bunun üçün də Dövlət Kadrları Palatasının razılığı tələb olunur. Hətta inzibati vəzifələrdə olan şəxslər kommersiya ilə məşğul olan şirkətlərdə və ya digər təşkilatlarda işləyə bilməzlər. Bundan məqsəd odur ki, məmur əvəzçilik yolu ilə işlədiyi müəssisə üçün müəyyən güzəştlər edə bilər və bununla da dövlət qulluğuna etimadsızlıq yaradar. Xidməti vəzifələrinin pozulması zamanı qoyulan sanksiyalar isə çox sərtdir. Bunların dörd növu vardır: işdən azad etmək, müvəqqəti işdən kənarlaşdırmaq, əmək haqqını azaltmaq və töhmət vermək. Bunlarla yanaşı cinayət cəzası verilməsi halları da vardır. Qanunun müvafiq maddələrində həbs cəzası və ya cərimə də nəzərdə tutulmuşdur. Bu məsələlərdə də dövlət qulluqçusunun müdafiəsi unudulmamışdır. Əgər dövlət qulluqçusunun iradəsinə zidd olaraq verilmiş cəza nəticəsində ona ciddi zərər dəymişdirsə, "Dövlət qulluğu haqqında ərizələrin ekspertizası haqqında" Qanun əsasında o, yalnız Dövlət Kadrları Palatasına şikayət verə bilər.

Digər bir qanunu da ayrıca qeyd etməyə dəyər. Bu da "Dövlət qulluqçularının etikası haqqında" Oanundur. Həmin qanun tam həcmdə 2000-ci il aprelin 1-dən qüvvəyə minmişdir. Burada qadağan olunmuş hərəkətlər konkret olaraq göstərilir. Məsələn, əlaqədar şəxslərdən pul, əşya və ya daşınmaz mülkiyyət götürülməsi işdən çıxarma və ya töhmətlə nəticələnə bilər. Qonaqlıq və digər əyləncələr qəbul edilməsi isə əmək haqqının azaldılmasından töhmətə qədər cəza ilə, əlaqədar şəxslərdən borc pul alınması əmək haqqının azaldılması və ya töhmətlə, əvəzsiz olaraq əşya və daşınmaz əmlak borc şəklində qəbul edilərsə, ya alınarsa müvəqqəti olaraq işdən kənar edilmə və ya əmək haqqının azaldılması ilə, əlaqədar şəxslərdən əvəzsiz xidmətlərin qəbul edilməsi isə işdən çıxarılmadan tutmuş töhmətə qədər cəza ilə nəticələnə bilər. İstisna olaraq işçilərin

iştirak etdiyi müşavirələrdə adi yeməklər və içkilər qəbul edilməsinə icazə verilir. Öz xərcləri hesabına qadağa qoyulan hərəkətlər dedikdə isə əlaqədar şəxslərlə səyahətlərə getməyə, qolf və ya digər oyunlar oynamağa görə töhmət verilə bilər. Adi sosial ünsiyyət hərəkətlərini aşan hərəkətlər, o cümlədən təkrar qonaqlıqlar qəbul etmək əmək haqqının azaldılması və ya töhmətlə nəticələnə bilər. Dövlət qulluqçusu mühazirələrlə çıxış etmək, mətbuat orqanlarında məqalələr çap etmək üçün də icazə almalıdır. Əks halda qulluqçunun əmək haqqı azaldıla və ya ona töhmət verilə bilər.

*— Azərbaycan Respublikasında "Dövlət qulluğu haqqında" Qanunun tam tətbiqindən nə vaxt danışmaq olar?*

— Milli Məclisdə dövlət qulluğu vəzifələrinin təsnifatı haqqında qanun layihəsinin təsdiqi burada mühüm əhəmiyyət kəsb edir. Yəqin ki, bir neçə belə sənədlər qəbul edildikdən sonra yaxın vaxtlarda "Dövlət qulluğu haqqında" Qanun tam gücü ilə işləməyə başlayacaq və dövlət qulluqçularının işinin təşkili tamamilə yeni qaydada aparılacaqdır. Bu barədə gələcəkdə sizə və oxucularımıza məlumat verəcəyik.

*— Bütövlükdə seminarın gedişindən razı qaldınızmı?*

— Olduqca maraqlı seminar idi. Çox razı qaldım. Yaponların özünə, onların öz adət-ənənələrinə olan münasibətinə, zəhmətsevərliyinə heyran oldum. Belə zəhmətkeş xalq heç vaxt çətinlik çəkməz və həmişə tərəqqi edəcəkdir.

*"Respublika" qəzeti*
*26 iyun 2002-ci il*



# DÖVLƏT QULLUQÇUSU ÜÇÜN SINAQ MÜDDƏTİ HƏYAT VƏSİQƏSİDİR

**"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tam qüvvəsi ilə tətbiq olunması respublika ictimaiyyətini, xüsusilə də dövlət qulluğunda çalışanları çox maraqlandırır və düşündürür. Qanunun tətbiqi ilə əlaqədar normativ hüquqi aktların əksəriyyəti artıq qəbul edilmişdir. İndiyədək qəbul olunmuş sənədlər barəsində oxucularımıza müxtəlif vaxtlarda geniş məlumat vermişik. Dövlət qulluğuna qəbulun müsabiqə yolu ilə aparılacağı, bu məqsədlə namizədlərin test imtahanlarından, söhbətdən keçiriləcəyi və müsabiqənin nəticələri elan olunduqdan sonra sınaq müddəti ilə dövlət qulluğuna qəbul ediləcəkləri məlumdur. Sınaq müddətinin tətbiqi nədən irəli gəlir, bu, dövlət qulluğu üçün nə dərəcədə vacibdir və nə cür həyata keçirilir. Oxucularımızı maraqlandıran bu və digər suallarla Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı Ümumi şöbəsinin müdiri Süleyman İsmayılova müraciət etdik. Həmin müsahibəni diqqətinizə çatdırırıq.**

***— Süleyman müəllim, dövlət qulluqçuları müsabiqə yolu ilə seçildikdən sonra sınaq müddəti ilə işə götürülür. Sınaq müddəti hansı məqsəd daşıyır və onun əhəmiyyəti barədə nə deyə bilərsiniz?***

— Bu məsələlər "Dövlət qulluğu haqqında" Qanunla və "Sınaq müddəti ilə müvafiq icra hakimiyyəti orqanlarında dövlət qulluğuna qəbul üçün əmək müqaviləsinin (kontraktının) nümunəsinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli Fərmanı ilə tənzimlənir.

Qanunda göstərildiyi kimi, sınaq müddəti işə yeni götürülən şəxslərə aiddir və inzibati vəzifələr boşaldıqda, müvafiq dövlət qulluğunu idarəetmə orqanı tərəfindən həmin vəzifələrin tutulması üçün elan edilmiş müsabiqə başa çatdıqdan sonra tətbiq olunur. Bu qanunun dövlət qulluğunda sınaq müddətinin olmasını təsbit edən maddəsində göstərilir ki, dövlət orqanının rəhbəri müsabiqədən keçmiş və ona təqdim olunmuş namizədlərdən birini seçərək öz qərarı ilə bir il müddətinə stajçı kimi qulluğa götürür və boş vəzifəyə təyin edir. Staj dövründə dövlət orqanı rəhbərinin təyin etdiyi kurator stajçının işinə göz qoyur və nəzərdə tutulan müddət qurtardıqdan sonra stajçının dövlət qulluğuna götürülməsinin məqsədəuyğun olub-olmadığı barədə tövsiyə təqdim edir. Qanunvericilikdə başqa qayda nəzərdə tutulmadıqda, tövsiyə müsbət olarsa, stajçı əmək müqaviləsi (kontrakt) bağlamaq yolu ilə iki illik sınaq müddəti ilə işə qəbul edilir. Sınaq müddəti üçün işin şərtləri isə kontraktda müəyyənləşdirilir.

Kontraktda göstərildiyi kimi, işçi onu bağladıqda mütləq Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş əsas vəzifələrinin və öz əmək funksiyasının vaxtında, keyfiyyətlə yerinə yetirilməsinə əməl etməlidir.

***— Bu kontraktın nümunəsi bütün təşkilatlar üçün eynidirmi?***

— Xeyr. Təsdiq olunmuş nümunə ümumi müddəaları əks etdirir və qanunda göstərildiyi kimi, sınaq müddəti ilə işə qəbul kontraktının nümunəsi Azərbaycan Respublikasının müvafiq qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanının müəyyən etdiyi qaydada təsdiq olunur. Yəni hər bir dövlət qulluğunu idarəetmə orqanının öz spesifik tələbləri və xüsusiyyətləri bu kontraktda nəzərə alınır.

***— Dövlət qulluğuna qəbul üçün əmək müqaviləsi (kontraktı) Azərbaycan Respublikasının Əmək Məcəlləsində verilmiş əmək müqaviləsinin (kontraktının) nümunəvi formasından çoxmu fərqlənir?***



— Müqavilənin əsas prinsipləri eynidir. Lakin haqqında danışdığımız fərmanla təsdiq olunmuş nümunədə dövlət qulluğunun spesifikası nəzərə alınmaya bilməzdi. Bu cəhətdən müəyyən fərqlər vardır. Onları müqayisə etsəniz, bunu özünüz də aydın görə bilərsiniz. Məsələn, kontrakta xitam verilməsi barədə tərəflərin müəyyən etdiyi hallar bəndində göstərilir ki, bu, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, digər normativ hüquqi aktları ilə və bu kontraktda nəzərdə tutulmuş digər hallar nəzərə alınmaqla həyata keçirilir. Kontraktın onuncu maddəsində isə qeyd olunur ki, bu kontrakta əsasən sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş işçilərə, dövlət qulluqçusuna ixtisas dərəcəsinin verilməsi barədə müddəalar istisna olmaqla, dövlət qulluqçusunun hüquqi statusunu tənzimləyən normativ hüquqi aktların bütün müddəaları şamil edilir. 12 maddədən və 30 yarımbənddən ibarət olan kontrakt nümunəsi dövlət qulluğuna qəbul edilmiş şəxslə dövlət orqanı arasında olan münasibətləri hərtərəfli əks etdirir.

***— Ümumiyyətlə, sınaq müddəti dövlət orqanına və dövlət qulluğuna qəbul olunmaq istəyən şəxsə nə verir?***

— Sınaq müddətini dövlət qulluqçusunun həyat vəsiqəsi alması üçün keçirilən uzunmüddətli imtahana bənzətmək olar. Bu müddətdə kontraktda göstərilən şərtlərə əməl olunması əsas rol oynayır və dövlət qulluğuna qəbul işində təsadüflərin tamamilə aradan qaldırılmasına xidmət edir. Çünki təkcə müsabiqə, test imtahanları və söhbətlər əsasında insanın xarakterini, onun işə münasibətini, əqidəsini və davranışını tam öyrənmək mümkün deyildir. İnsanın əsl xarakteri və dövlət qulluğuna yararlı olub-olmaması məhz iki illik sınaq müddətində gündəlik müşahidələr nəticəsində, ayrı-ayrı vəziyyətlərdə və konkret hallarda müəyyənləşir. Bəzən insan əsl xarakterini, necə deyərlər, iç üzünü müəyyən müddət gizlətməyə müvəffəq olsa da, iki illik

sınaq müddətində bu, mütləq özünü büruzə verməlidir. Bundan başqa dövlət qulluqçusunun özü də işləmək istədiyi müəssisənin xüsusiyyətlərini, iş rejimini, əsas tələblərini mənimsəyərək münasibətini dəyişə bilər. Belə hallarda kontraktın pozulması şərtləri isə kontraktın müvafiq maddəsində göstərilmişdir. Yəni tərəflər kontraktı ya qarşılıqlı razılıq əsasında, ya səhhəti ilə əlaqədar olaraq işçinin müvafiq vəzifədə (peşədə) çalışması sağlamlıq üçün təhlükəli olduğu barədə səhiyyə müəssisəsinin müvafiq rəyinə görə, ya da kontraktda nəzərdə tutulmuş digər şərtlərə əməl edilmədikdə poza bilərlər. Sınaq müddəti ərzində tərəflərdən biri digərini 3 gün əvvəl xəbərdarlıq etməklə kontraktı birtərəfli qaydada poza bilər. Kontraktda birtərəfli qaydada dəyişikliklər aparılması, əlavələr və düzəlişlər edilməsi düzgün sayıla bilməz və bunun hüquqi qüvvəsinin olmadığı da müvafiq maddədə öz əksini tapmışdır. Kontraktın pozulması üçün əsas səbəblərdən biri o ola bilər ki, işçi dövlət orqanının kommersiya və xidmət sirrinin qorunması barədə öhdəliyinə əməl etməsin. Belə hallarda o, qanunvericiliklə və bu kontraktda nəzərdə tutulan qaydada məsuliyyət daşıyır.

Sınaq müddəti ərzində kontrakt pozulmayıbsa, həmin müddət qurtardıqdan sonra dövlət orqanının rəhbəri kontraktın şərtlərinə əməl etmiş işçinin daimi dövlət qulluğuna götürülməsi haqqında əmr verir və qanunvericilikdə müəyyən olunmuş qaydada bu şəxslə müvafiq kontrakt bağlanır.

— ***Kontraktda sınaq müddəti ilə işləyən şəxslər üçün hansı hüquqlar müəyyən edilmişdir?***

— Kontraktda sınaq müddəti ilə işləyən işçinin təkcə vəzifələri deyil, həm də hüquqları öz əksini hərtərəfli tapmışdır. Kontraktda sınaq müddətinin vaxtı, onun pozulması üçün xəbərdarlıq etmə müddəti, işçinin işə başladığı tarix dəqiq göstərilir. Əmək şəraitinin şərtləri konkret göstərilir. Burada dövlət orqanının rəhbəri işçi üçün onun sağlamlığının, əməyinin mühafizəsinin təmin olunması üçün sanitariya və gigiyena normalarına cavab verən iş yeri və iş şəraiti yaradılacağını, ona



həvalə olunmuş funksiyaların yerinə yetirilməsi üçün lazımi qulluq şəraiti ilə təmin olunacağını, hər ay ona nə qədər və ayın hansı günlərində məvacib, hansı mükafatların və nəyə görə veriləcəyini öz üzərinə götürür. Dövlət məvacibinin verilməsi qaydaları da konkretləşdirilmişdir. Eyni zamanda həmin maddədə əməyin mühafizəsi, iş və istirahət vaxtı, məzuniyyətlər, sosial müdafiə məsələləri üzrə öhdəliklər də təfsilatı ilə əks olunmuşdur. Məsələn, kontraktda göstərilir ki, işçi gündə 8 saat, həftə ərzində isə 40 saat işləyir, qulluq üçün zəruri olduqda, dövlət orqanının rəhbəri müstəsna hallarda iş vaxtını ayda əvəzi ödənilmədən 5 saata qədər artıra bilər. Bundan artıq işlərin yerinə yetirilməsinə görə qanunvericilikdə nəzərdə tutulmuş əlavə haqq ödənilir.

— ***Bir sözlə, belə demək olarmı ki, bu kontrakt tam hüquqi sənəd sayılır və hər iki tərəf onun pozulmasına görə məsuliyyət daşıyır?***

— Əlbəttə. Sənədin təsdiq edilməsinin əsas məqsədi məhz dövlət orqanları ilə dövlət qulluqçuları arasında münasibətlərə dəqiq hüquqi status vermək, hər iki tərəfin mənafeyini qorumaq və məsuliyyətini müəyyənləşdirmək, ən başlıcası isə dövlət qulluqçusunun hüquqlarını təmin etməkdir.

— ***Ətraflı təhlilə görə təşəkkür edirik.***

*"Respublika" qəzeti*
*11 sentyabr 2002-ci il*

# DÖVLƏT QULLUĞUNA MÜSABİQƏ VASİTƏSİ İLƏ QƏBUL DÜZGÜN SEÇİM YOLUDUR

**"Dövlət qulluğu haqqında" Qanun və onunla əlaqədar qəbul olunmuş normativ hüquqi aktlar barəsində Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ümumi şöbəsinin müdiri Süleyman İsmayılovun respublika mətbuatında dərc olunmuş məqalə və müsahibələri oxucular arasında böyük maraq doğurmuşdur. Süleyman İsmayılovla söhbətimiz də "Dövlət qulluğu haqqında" Qanunun icrasının təmin edilməsi üçün əhəmiyyətli sənədlərdən biri olan "İcra hakimiyyəti orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul Qaydaları" haqqındadır.**

***— Süleyman müəllim, icra hakimiyyəti orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul necə və hansı qaydada həyata keçiriləcəkdir?***

— Əvvəlcə onu qeyd etməliyəm ki, "Dövlət qulluğu haqqında" Qanuna uyğun olaraq Azərbaycan Respublikasının 16 yaşına çatmış, irqindən, milliyətindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, dinə münasibətindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq, müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan vətəndaşlarının dövlət qulluğuna girmək hüququ vardır. Qanunun tələblərinə görə, dövlət qulluğuna vətəndaşlar müsabiqə əsasında qəbul edilirlər, həmçinin dövlət qulluğunda boşalan vəzifələrə vətəndaşlar müsabiqə əsasında təyin olunurlar. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 2001-ci il sentyabrın 3-də



təsdiq etdiyi "İcra hakimiyyəti orqanlarında dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul Qaydaları" müsabiqə vasitəsi ilə qəbulun həyata keçirilməsini, o cümlədən müsabiqənin necə və kim tərəfindən elan edilməsini, bunun üçün hansı sənədlərin təqdim edilməsini, müsabiqənin test imtahanları və şifahi söhbət əsasında keçirilməsini, müsabiqənin yekunlarına dair müvafiq qərar qəbul edilməsini və sair məsələləri tənzimləyir.

***— Konkret olaraq icra hakimiyyəti orqanlarında hansı vəzifələrin tutulması üçün müsabiqə keçirilir?***

— Haqqında söhbət açdığımız qaydalara uyğun olaraq inzibati vəzifələrin təsnifatına uyğun olan vəzifələr boşaldıqda, müvafiq dövlət qulluğunu idarəetmə orqanı həmin vəzifələrin tutulması üçün müsabiqə elan edir və kütləvi informasiya vasitələrində elan verilir. Elanda boş inzibati vəzifənin adı, bu vəzifəni tutmaq istəyən vətəndaşlar qarşısında qoyulan tələblər, o cümlədən dövlət qulluğunda işləmək üçün lazım olan şərtlər göstərilir. Müsabiqədə iştirak etmək istəyən şəxslər ərizə, şəxsiyyəti təsdiq edən sənədin surətini, kadrların uçotunun şəxsi vərəqəsini, avtobioqrafiya, təhsil haqqında sənədin surətini, əmək kitabçasının surətini, ixtisas dərəcəsini təsdiq edən sənədlərin surətini, sağlamlıq haqqında arayışı və dövlət qulluqçularının bəzi kateqoriyaları üçün qanunvericiliklə nəzərdə tutulmuş digər sənədləri təqdim edir. Sənədlərin qəbulu müsabiqə elan edilən gündən etibarən 30 gün ərzində müsabiqəni elan etmiş müvafiq dövlət qulluğunu idarəetmə orqanı tərəfindən aparılır. Göstərilən müddət keçdikdən sonra daxil olan sənədlər (həmin müddətdə poçtla göndərilmiş sənədlər istisna olmaqla) qəbul edilmir. Sənədlərin tamlığı, qanunvericilikdə qəbul edilmiş şərtlərə uyğunluğu yoxlanılır və jurnalda qeydiyyata alınır.

***— Sənədlərin qəbul edilməsindən imtina oluna bilərmi?***

— Təbiidir ki, qanunvericilikdə müəyyən edilmiş qaydada namizədlərin qəbul olunmuş sənədləri onların dövlət qulluğunda

işləməsinin mümkün olub-olmamasını müəyyən etmək üçün qabaqcadan yoxlanılır. Sənədlər yoxlanılarkən onlar natamam olduqda və ya yuxarıda adını çəkdiyimiz qaydalara uyğun olmadıqda, habelə sənədlərdə uyğunsuzluq aşkar edildikdə, onlar qəbul olunmur. Dövlət qulluğuna girmək üçün qanunvericilikdə müəyyən edilmiş şərtlərə cavab verməyən namizədlər icra hakimiyyəti orqanlarında inzibati vəzifə tutmaq üçün müsabiqəyə buraxılmırlar və namizədin müsabiqəyə buraxılmamasının səbəbi barədə ona izah olunan rəsmi cavab verilir.

— ***Şəxs dövlət qulluğuna hansı hallarda götürülə bilməz?***

— Şəxs dövlət qulluğuna o zaman götürülə bilməz ki, onun fəaliyyət qabiliyyətinə malik olmaması və ya məhdud fəaliyyət qabiliyyətinə malik olması məhkəmənin qərarı ilə təsdiq edilsin, məhkəmə onu müəyyən müddətə dövlət vəzifəsi tutmaq hüququndan məhrum etsin, bilavasitə tabeliyində və ya nəzarəti altında işləyəcəyi vəzifəli şəxslə yaxın qohumluq və ya qudalıq (ər-arvadlar, onların valideynləri, qardaşları, bacıları, övladları) əlaqəsi olsun. Dövlət qulluğuna qəbul edilən şəxsin dövlət qulluğunda işləməsinin mümkün olub-olmaması qabaqcadan yoxlanıla bilər. Bu yoxlamanın aparılması qaydaları da qanunvericiliklə müəyyən edilir. Bir vacib cəhəti qeyd etmək lazımdır ki, bu yoxlama zamanı şəxsi (ailə) həyatı təfsilatı ilə yoxlanıla bilməz.

— ***Test imtahanlarının keçirilməsi barədə bir qədər geniş məlumat verə bilərsinizmi?***

— Qeydiyyatdan keçmiş namizədlər xüsusi formalı "Namizədin ərizəsi"ni şəxsən doldurub təqdim edirlər. Sənədlərin qəbulu başa çatdıqdan sonra 10 gün ərzində test imtahanından və söhbətdən ibarət olan müsabiqə keçirilir. Test imtahanları Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən 2 mərhələdə keçirilir. Birinci mərhələdə namizədlərin ixtisas-peşə biliklərinin, ikinci mərhələdə isə onların şəxsi keyfiyyətləri və kompüter üzrə bilik səviyyəsi yoxlanılır. Test imtahanlarının



keçirilməsi qaydaları, imtahanın hər mərhələsində istifadə ediləcək sualların sayı və çətinlik dərəcəsi, cavab kartlarının oxunması və qiymətləndirilmənin aparılması Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən hazırlanmış normativ sənədlər əsasında tənzimlənəcəkdir. Cavab kartları yoxlandıqdan sonra nəticələr müvafiq dövlət qulluğunu idarəetmə orqanına təqdim ediləcək və imtahanı müvəffəqiyyətlə vermiş şəxslərə topladıqları ballar haqqında iki gün müddətində arayış veriləcəkdir. Test imtahanlarında mümkün olan balların ən azı 80 faizini toplamış namizəd imtahanı müvəffəqiyyətlə vermiş hesab ediləcək və bundan sonra ikinci mərhələyə - söhbətə buraxılacaqdır.

— ***Şifahi söhbət əsasən hansı məsələləri əhatə edir?***

— Söhbət zamanı namizədlərin Azərbaycan Respublikasının Konstitusiyasını, Qanunlarımızı, Prezidentin fərman və sərəncamlarını, digər normativ aktları vəzifə borclarının icrası ilə əlaqədar nə dərəcədə tətbiq edə biləcəyini - tətbiq etmək sahəsində biliyini və bacarığını müəyyən etmək üçün onlara suallar verilir. Bunda məqsəd həmin şəxsin dövlət qulluqçusu üçün zəruri olan keyfiyyətlərə malik olub-olmadığını aydınlaşdırmaqdır.

— ***Söhbəti konkret olaraq kim keçirir və hansı formada aparır?***

— Söhbəti müvafiq dövlət qulluğunu idarəetmə orqanı tərəfindən yaradılmış qrup aparır və bu qrupa müvafiq sahə üzrə alimlər, digər mütəxəssislər də cəlb edilə bilər. Söhbətin keçirildiyi yer və vaxt barədə namizədlərə 2 gün əvvəlcədən məlumat verilir, burada obyektivliyi təmin etmək və neqativ halları aradan qaldırmaq üçün namiizədlərin siyahısı qrup rəhbərinə söhbət keçirilən gün söhbət başlanmazdan əvvəl verilir. Söhbət başlanarkən qrup rəhbəri tərəfindən siyahı elan edilir və qrupun üzvlərindən etirazları olub-olmaması soruşulur.

Qrupun üzvü namizədlərlə yaxın qohumluq və ya şəxsi yaxınlıq münasibətində olduqda özünə etiraz verir. Qrupun hər hansı bir üzvünə kifayət qədər əsas olduqda, namizəd də etiraz edə bilər. Ancaq belə etiraz söhbət başlanmazdan əvvəl olmalıdır. Hər bir namizədlə fərdi qaydada ən azı 20 dəqiqə aparılan söhbətin nəticələri müvafiq balla qiymətləndirilir. Qrup üzvləri arasında bu barədə fikir mübadiləsi keçirilir və müvafiq qiymət verilir. Toplanmış ballar barədə hər namizədə təsdiq edilmiş formada arayış verilir. Bütövlükdə isə namizədin toplaya biləcəyi mümkün yekun balının 80 faizi test imtahanı, 20 faizi isə söhbət nəticəsində formalaşır. Namizəd barəsində qərar test imtahanının və söhbətin yekunu barədə arayışın yekununa uyğun qəbul edilir.

***— Müsabiqədən müvəffəqiyyətlə keçmiş bütün şəxslər dərhal dövlət qulluğuna qəbul edilirlərmi?***

— Müsabiqədən keçmiş namizədlər dövlət orqanı rəhbərinə təqdim olunduqdan sonra o, namizədlərdən birini seçərək öz qərarı ilə bir il müddətinə stajçı kimi qulluğa götürür və boş vəzifəyə təyin edir. Staj dövründə dövlət orqanı rəhbərinin təyin etdiyi kurator stajçının işinə göz qoyur və staj müddəti qurtardıqdan sonra stajçının dövlət qulluğuna götürülməsinin məqsədəuyğun olub-olmadığı barədə tövsiyə təqdim edir. Sınaq müddəti ilə bağlı sonrakı söhbətlərimizdə daha ətraflı danışarıq.

Yuxarıda qeyd etdiyimiz kimi, boşalmış vəzifəni tutmaq üçün istənilən sayda namizəd müsabiqədə iştirak edə bilər və ola bilsin ki, müsabiqədən keçmiş şəxslərin sayı boşalmış vəzifələrin sayından çox olsun. Belə hallarda vəzifəyə təyin edilməmiş şəxslər üç il müddətinə dövlət qulluğunu idarəetmə orqanında ehtiyat kadr kimi saxlanılır və həmin müddət ərzində icra hakimiyyəti orqanlarında analoji vəzifə boşaldıqda, boş vəzifəyə təyin olunmaq üçün müvafiq icra hakimiyyəti orqanına göndərilir. Lakin müəyyən olunmuş bu üç il bitdikdən sonra onlar ehtiyat kadrlar sırasından çıxarılırlar.



***— Müsabiqədən hamı keçə bilməz və təbii ki, narazı qalanlar da olacaqdır. Onlar bu barədə kimə şikayət edə bilərlər?***

— Sözsüz ki, beləsi olacaqdır. Narazı qalan hər bir namizəd nəticənin ona elan olunduğu vaxtdan 5 gün müddətində bu barədə müvafiq dövlət orqanının rəhbərinə şikayət verə bilər. Müvafiq dövlət orqanının rəhbəri isə şikayətçinin cavab kartını və söhbətin yekunu barədə arayışı qaldırıb ərizəçinin iştirakı ilə araşdırır. Sonra şikayətin baxılması nəticələrinə dair müvafiq qərar çıxarılır. Namizəd bu qərardan narazı qalarsa, Dövlət Qulluğunu İdarəetmə Şurasına və ya bilavasitə məhkəməyə şikayət verə bilər.

***— Maraqlıdır, müsabiqənin keçirilməsi xərcləri hansı hesaba maliyyələşdirilir?***

— Təbiidir ki, müsabiqə dövlət qulluğuna qəbul üçün keçirildiyinə görə bütün xərclər də dövlət büdcəsindən maliyyələşdirilir.

***— Maraqlı söhbətinizə görə təşəkkürümüzü bildiririk.***

*"İki sahil" qəzeti*
*26 oktyabr 2002-ci il*

## DÖVLƏT QULLUQÇUSUNUN HÜQUQİ MÜDAFİƏSİ NECƏ TƏŞKİL OLUNUR?

**Ölkəmizdə hüquqi, demokratik və sivil dövlət quruculuğunun geniş vüsət aldığı müasir dövrdə vətəndaşların, o cümlədən dövlət qulluqçularının üzərinə böyük vəzifələr və məsuliyyət qoyulmaqla yanaşı onların hüquqlarının qorunmasına, onlar barəsində yol verilmiş qanunsuzluqların qarşısının alınmasına da ciddi diqqət yetirilir. Dövlət qulluqçusu barəsində ədalətsizlik edilərsə, onun barəsində düzgün olmayan intizam tənbehi tədbiri tətbiq edilərsə, o kimə şikayət edə bilər və öz haqqını necə qoruya bilər?**

**Oxucularımızın marağını nəzərə alaraq bu məsələlər barəsində onlara daha ətraflı məlumat vermək üçün Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ümumi şöbəsinin müdiri, Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü Süleyman İsmayılova müraciət etdik. Onunla söhbətimizi sizin nəzərinizə çatdırırıq.**

***— Süleyman müəllim, dövlət qulluqçusu barəsində intizam tənbehi tədbirləri nə üçün tətbiq olunur və bu tənbehlər nədən ibarətdir?***

— Biz söhbətlərimizdə dövlət qulluqçularının üzərinə qoyulan böyük vəzifələr və məsuliyyətlər barədə kifayət qədər məlumat vermişik. Eyni zamanda göstərmişdik ki, yeni qanun dövlət qulluğunun təşkilinin bütün məsələlərini, o cümlədən dövlət qulluqçularının hüquqlarının qorunması məsələlərini də hərtərəfli əhatə edir. Lakin bu, heç də o demək deyildir ki, dövlət



qulluqçularının özləri barəsində ədalətsizliyə yol verilə bilməz. Yəni belə hallara hələ təsadüf edilir və "Dövlət qulluğu haqqında" Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin 2001-ci il 3 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarında dövlət qulluqçuları barəsində tətbiq olunmuş intizam tənbehi tədbirlərindən şikayət verilməsi qaydası haqqında Əsasnamə" məhz belə hallara yol verilməsinin qarşısının alınmasına xidmət edir. Əvvəlcə dövlət qulluqçusu barəsində hansı intizam tənbehi tədbirlərinin müəyyənləşdirildiyini və bunların nəyə görə tətbiq edildiyini aydınlaşdırmaq lazımdır. Bildiyiniz kimi, qanunun müvafiq maddələrində dövlət qulluqçusunun vəzifələri və məsuliyyəti aydın göstərilmişdir. Ümumiyyətlə, hər bir işçinin işdə yol verdiyi nöqsanlara, yaxud öz vəzifələrini düzgün yerinə yetirmədiyinə görə onun barəsində inzibati tənbeh tədbirləri bundan əvvəl də mövcud olmuşdur. Lakin Əmək Məcəlləsinin müddəaları dövlət qulluğunda yardımçı vəzifələrdə işləyənlər üçün nəzərdə tutulduğuna görə digər dövlət qulluqçuları üçün belə tənbeh tədbirləri "Dövlət qulluğu haqqında" Qanuna uyğun olaraq müəyyən edilir. Daha konkret desək, qanunun dövlət qulluqçularının məsuliyyətini müəyyən edən maddəsində göstərildiyi kimi, dövlət qulluqçusu barəsində intizam tənbehi tədbirləri dövlət qulluqçularına həvalə olunmuş vəzifələrin yerinə yetirilməməsi, həmçinin qanunla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmaması, qanunda başqa qayda nəzərdə tutulmayıbsa, intizam məsuliyyətinə səbəb olur. Dövlət qulluqçularının əsas vəzifələrini müəyyən edən maddənin tələbləri pozularsa, onlara qarşı töhmət verilməsi, dövlət qulluqçusunun bir il müddətinədək vəzifə maaşının 5 faizdən 30 faizədək azaldılması, həmin dərəcədən olan, lakin vəzifə maaşı aşağı olan işə keçirilməsi, daha aşağı dərəcəli işə keçirilməsi, ixtisas dərəcəsinin aşağı salınması, ixtisas dərəcəsindən məhrum olunması, dövlət qulluğundan azad edilməsi kimi inzibati tənbeh tədbirləri tətbiq oluna bilər. Bu tənbeh növləri müvafiq dövlət qulluğunu idarəetmə orqanının razılığı ilə dövlət qulluqçusunun işlədiyi dövlət orqanının rəhbəri

tərəfindən tətbiq olunur. Bu heç də o demək deyildir ki, dövlət qulluqçuları barəsində təkcə intizam tənbehi tədbirləri tətbiq edilə bilər. Qanunda bildirilir ki, dövlət qulluqçuları qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada inzibati məsuliyyətə və cinayət məsuliyyətinə cəlb oluna bilərlər.

Unutmaq olmaz ki, qanuna görə, dövlət qulluqçusunun əsas hüquqlarından biri də onun barəsində qəbul edilmiş hər hansı qərara, lazım gələrsə, etiraz etmək, bu barədə yuxarı dövlət qulluğu orqanına, yaxud Dövlət Qulluğunu İdarəetmə Şurasına, həmçinin məhkəməyə müraciət etmək hüququ verilmişdir. Qanunda göstərildiyi kimi, dövlət qulluqçusunun ilk tələbdən öz şəxsi işinin bütün materialları ilə, şəxsi işə tikilməli olan rəylər və digər sənədlərlə tanış olmaq, habelə öz izahatlarının şəxsi işə tikilməsini tələb etmək, şərəf və ləyaqətinə xələl gətirən məlumatları təkzib etmək üçün xidməti təhqiqatlar aparılmasını tələb etmək, müvafiq orqanlarda və məhkəmədə öz qanuni hüquqlarını və mənafeyini müdafiə etmək hüququ vardır.

Eyni zamanda dövlət qulluqçularının attestasiyası haqqında müddəalarda göstərilir ki, dövlət qulluqçusu attestasiyanın nəticələrindən də narazı qaldıqda, şikayət verə bilər. Yəni dövlət qulluqçusunun bu sahədə hüquq və səlahiyyətləri müəyyən edilmişdir. Şikayətin kimə verilə biləcəyi də konkret müəyyənləşdirilmişdir. Bu sahədə təbiidir ki, aparıcı orqan Dövlət Qulluğunu İdarəetmə Şurası olacaqdır. Çünki Şuranın Əsasnaməsində göstərilir ki, onun funksiyalarından biri də "Dövlət qulluğu haqqında" Qanunda nəzərdə tutulmuş hallarda dövlət qulluqçularının şikayətinə baxılması və dövlət qulluqçularına dair məhdudiyyətlərin və təminatların yerinə yetirilməsinə nəzarət edilməsidir.

***— Deməli, dövlət qulluqçusu da sıravi vətəndaşlar kimi barəsində tətbiq edilmiş hər hansı intizam tənbehindən narazıdırsa, şikayət verə bilər.***

— Bəli, Əsasnamənin elə ikinci bəndində çox aydın göstərilmişdir ki, hər bir dövlət qulluqçusunun ona həvalə edilmiş



vəzifələrin yerinə yetirilməməsinə, həmçinin "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktlarla müəyyən edilmiş məhdudiyyətlərə əməl olunmamasına görə barəsində tətbiq olunmuş intizam tənbehi tədbirindən şikayət etmək hüququ vardır.

***— Dövlət qulluqçusu neçə gün ərzində şikayət verə bilər?***

— Tətbiq olunmuş intizam tənbehi tədbirinin ləğv edilməsi üçün yuxarı dövlət qulluğunu idarəetmə orqanına şikayət verilməsi üçün 7 gün vaxt müəyyənləşdirilib. Dövlət qulluqçusunun xəstə olduğu, yaxud məzuniyyətdə, ezamiyyətdə olduğu vaxt həmin müddətə daxil edilmir.

***— Şikayət hansı formada və hansı sənədlər təqdim edilməklə verilir?***

— Yuxarı dövlət qulluğunu idarəetmə orqanının rəhbərinə şikayət yazılı şəkildə təqdim olunmalı və ərizəyə əmək kitabçasından çıxarış, intizam tənbehinin verilməsi haqqında əmrin surəti, tənbeh verilməzdən əvvəl dövlət qulluqçusundan yazılı şəkildə alınmış izahat əlavə olunmalıdır. Bu sənədlərin surətinin isə şikayət vermək istəyən qulluqçuya təqdim edilməsində heç bir maneə olmamalıdır. Yəni o, həmin sənədləri istədiyi vaxt işlədiyi dövlət orqanından ala bilər.

***— Belə şikayətlərə baxılması üçün hansı müddətlər qoyulur?***

— Digər şikayətlərdən fərqli olaraq yuxarı dövlət qulluğunu idarəetmə orqanının rəhbəri tərəfindən belə şikayətlərə rəsmi daxil olduğu gündən sonra 10 gün ərzində baxılmalıdır və intizam tənbehi tədbirinin ləğvi, yaxud qüvvədə qalması barədə müvafiq qərar qəbul edilməlidir.

***— Belə hal ola bilərmi ki, intizam tənbehi tədbirini tətbiq etmiş dövlət orqanının rəhbəri yuxarı dövlət qulluğunu***

***idarəetmə orqanının qəbul etdiyi qərarla razılaşmasın, yəni idarə rəhbəri işdən çıxardığı, yaxud cəzalandırdığı şəxs barəsində qərarını dəyişməsin?***

— Bunun da öz proseduru vardır. Dövlət orqanının rəhbəri yuxarı dövlət qulluğunu idarəetmə orqanının qərarından narazıdırsa, o, 7 gün müddətində Dövlət Qulluğunu İdarəetmə Şurasına yazılı şikayət verə bilər. Bu şikayətə də həmin orqanın qərarı və yuxarıda göstərilən sənədlər əlavə olunmalıdır. Bu şikayətə baxılması üçün də 15 gün vaxt müəyyən edilmişdir. Dövlət Qulluğunu İdarəetmə Şurası məsələni hərtərəfli araşdıraraq yuxarı dövlət qulluğunu idarəetmə orqanının qərarının ləğvi, yaxud qüvvədə saxlanması barədə qərar qəbul edir. Bu qərarın icrası isə intizam tənbehi tədbirini tətbiq etmiş dövlət orqanı və yuxarı dövlət qulluğunu idarəetmə orqanı üçün məcburidir.

***— Bəs məhkəməyə nə zaman müraciət etmək olar?***

— Barəsində qərar qəbul edilmiş dövlət qulluqçusu Dövlət Qulluğunu İdarəetmə Şurasının qərarından narazı qalarsa, bu halda o, respublikanın qanunvericiliyinə uyğun olaraq məhkəməyə müraciət edə bilər. Burada bir məsələ də var. Əsasnamədə göstərilir ki, dövlət qulluqçusu intizam tənbehi verilərkən qanunvericiliyin tələblərinin, onun hüquqlarının pozulduğunu iddia edərsə, o, dövlət qulluğunu idarəetmə orqanlarına müraciət etmədən birbaşa məhkəməyə müraciət edə bilər.

***— Süleyman müəllim, Siz qeyd etdiniz ki, dövlət orqanının rəhbəri ilə dövlət qulluğunu idarəetmə orqanı arasında bəzi məsələlərdə, o cümlədən inzibati vəzifələrin tutulması zamanı fikir ayrılıqları yarana bilər, yəni dövlət qulluğunu idarəetmə orqanının tövsiyələrini bəzən idarə rəhbəri qəbul etmək istəməz. Belə hallarda məsələlər necə tənzimlənir?***

— Qeyd edək ki, belə fikir ayrılıqları adətən boşalmış inzibati vəzifənin tutulması üçün müsabiqə elan edilərkən, yaxud



attestasiyanın nəticələri üzrə tövsiyələr verilərkən mümkün ola bilər. Bu məsələlərin tənzimlənməsi isə "İcra hakimiyyət orqanlarında inzibati vəzifələrin tutulması ilə bağlı dövlət orqanının rəhbəri dövlət qulluğunu idarəetmə orqanının tövsiyəsi ilə razılaşmadıqda, yaranmış fikir ayrılığının aradan qaldırılması Qaydaları" ilə həyata keçirilir. Belə hallarda Qaydalarda göstərildiyi kimi, yaranmış fikir ayrılığının aradan qaldırılması Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası tərəfindən həyata keçirilir.

***— Bu barədə müraciətlərin verilməsi və baxılması üçün hansı müddətlər qoyulmuşdur və bu necə yerinə yetirilir?***

— Dövlət orqanı dövlət qulluğunu idarəetmə orqanının boşalmış vəzifəni tutmaq üçün təqdim etdiyi namizədlər barədə sənədləri rəsmi məlumat alınan gündən 15 iş günü müddətində araşdırmalı, nəticəsi barədə dövlət qulluğunu idarəetmə orqanına rəsmi məlumat verməlidir. Dövlət orqanı təqdim edilmiş namizədlərlə razılaşmadıqda hansı mülahizələrə əsaslandığını göstərməli və Dövlət Qulluğunu İdarəetmə Şurasına fikir ayrılığının aradan qaldırılması üçün 3 gün müddətində izahlı rəsmi müraciət etməlidir. Bundan sonra isə Dövlət Qulluğunu İdarəetmə Şurası 15 iş günü müddətində ya tövsiyənin qüvvədə saxlanması və namizədlərdən birinin həmin inzibati vəzifəyə təyin olunması barədə qərar qəbul etməli, ya da tövsiyəni rədd etməlidir. Nəzərə almaq lazımdır ki, Şuranın qəbul etdiyi qərarın icrası məcburidir. Əgər Şura tərəfindən "tövsiyə qüvvədə saxlanılır və namizədlərdən biri təyin olunur" qərarı qəbul edilmişsə, dövlət orqanının rəhbəri namizədlərdən birini mütləq boşalmış vəzifəyə təyin etməlidir. Şura tərəfindən tövsiyə rədd olunduqda isə boşalmış vəzifənin tutulması üçün qanunvericilikdə müəyyən edilmiş qaydada müsabiqə elan edilib keçirilməlidir.

***— Süleyman müəllim, dediklərinizin real surətdə tətbiqinə başlanması müddəti barədə nə deyə bilərsiniz?***

— Əvvəlki söhbətlərimizdə biz demişdik ki, qanunun tam gücü ilə işləməsi üçün onun tətbiqindən irəli gələn bütün məsələlər barəsində normativ hüquqi aktlar təsdiq olunmalıdır. "Dövlət qulluğu haqqında" Qanunun real şəkildə tətbiq olunması üçün iş gedir və çox güman ki, yaxın vaxtlarda biz onun real tətbiqinin şahidi olacağıq.

***— Maraqlı söhbətinizə görə təşəkkür edirik.***

*"İki sahil" qəzeti*
*4 dekabr 2002-ci il*



# "DÖVLƏT QULLUĞU MƏSƏLƏLƏRİNƏ DAİR NORMATİV HUQUQİ AKTLAR"IN İLK NƏŞRİ

Avropa İttifaqının dəstəyi ilə Dövlət Qulluğu Sahəsində İslahatların Həyata Keçirilməsi üzrə TACİS Layihəsi çərçivəsində Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı tərəfindən hazırlanmış və nəşri Avropa İttifaqı tərəfindən maliyyələşdirilmiş "Dövlət qulluğu məsələlərinə dair normativ huquqi aktlar" məcmuəsi bu günlərdə çapdan çıxmışdır.

Nəfis şəkildə tərtib olunmuş kitab iki bölmədən ibarətdir. Birinci bölmədə qanunlar, ikinci bölmədə isə fərmanlar cəmlənmişdir. Bütövlikdə, kitaba dövlət qulluğuna aid 2000-ci ildən bu günə qədər qəbul edilmiş 10 qanun və 21 fərman daxil edilmişdir. Qanun və fərmanlar kodifikasiya olunmuş, həmin aktlara edilmiş müxtəlif dəyişiklik və əlavələr burada öz əksini tapmışdır. Kitab dövlət qulluqçuları, hüquqşünaslar, politoloqlar, müəllim və tələbələr, sıravi vətəndaşlar üçün əvəzsiz vəsaitdir.

Ön sözdə və "Azərbaycanda dövlət qulluğu sahəsində islahatlar" adlı icmalda 1993-cü ildən başlayaraq, respublikada idarəetmə sisteminin təkmilləşdirilməsi sahəsində görülən işlərə, xüsusilə dövlət qulluğunun yenidən qurulması üçün qəbul edilmiş normativ hüquqi aktların əsas cəhətlərinə diqqət yetirilmiş, respublikada dövlət qulluğunun müasir tələblər səviyyəsində qurulması üçün bu sənədlərin əhəmiyyəti qısa və konkret faktlarla şərh edilmişdir.

Kitaba daxil edilmiş normativ huquqi aktların əsas məziyyəti budur ki, onlar, ilk növbədə idarəçilik sisteminin başlıca

amillərindən olan kadr proseslərinin düzgün istiqamətləndirilməsinə, bunun üçün iqtisadi, sosial və subyektiv əsasların yaradılmasına, dövlət qulluğunun yeni — XXI əsrin tələbləri səviyyəsinə qaldırılmasına şərait yaradır, dövlət qulluqçularının sosial müdafiəsini gücləndirmək, hüquq və vəzifələrini dəqiq müəyyənləşdirməklə yanaşı, onların peşəkarlığını, mənəvi saflığını, dövlətçilik prinsiplərinə və milli mənafelərə sadiqliyini, məsuliyyət və cavabdehlik hisslərini ön plana çəkir, onların barəsində müxtəlif həvəsləndirmə tədbirləri ilə bərabər, həm də müvafiq tənbeh tədbirləri görülməsini qanun çərçivəsinə salır. Kitabda idarəetmə funksiyalarını həyata keçirən dövlət orqanları, dövlət qulluqçularının ümumi sayı və onların saxlanması xərcləri barədə verilmiş məlumatlar da böyük maraq doğurur.

Dövlət qulluğu sahəsində islahatların həyata keçirilməsi üzrə Avropa İttifaqının TACİS layihəsinin baş eksperti professor Diter Şimankenin yazdığı icmalda isə respublikada indiyədək dövlət qulluğu haqqında qəbul edilmiş aktların hazırlanması üçün həmin layihə çərçivəsində görülmüş işlər qeyd olunur, habelə bu aktların Avropa və dünya standartlarına nə dərəcədə uyğun olması, həmin aktlarda çatışmayan bəzi cəhətlər, gələcəkdə dövlət qulluğu sahəsində ölkəmizdə görüləcək işlərin perspektivləri açıqlanır.

Kitabda Avropa İttifaqının TACİS proqramı çərçivəsində 1991-ci ildən sonra görülən işlər haqqında ingilis və Azərbaycan dillərində qısa məlumat da verilmişdir.

Müsbət hal kimi bunu da qeyd etmək lazımdır ki, 1000 nüsxə tirajla çap olunmuş bu kitab heç bir kommersiya məqsədi daşımır və respublikanın idarə və təşkilatlarına pulsuz paylanacaqdır.

Respublikamızda əhalinin böyük bir təbəqəsini təşkil edən dövlət qulluqçularının, eləcə də bütün əhalinin marağına səbəb olan bu kitab dövlət qulluğuna dair yeni aktlar qəbul edildikcə təkrar nəşr olunacaq və yəqin ki, hamının stolüstü kitabına çevriləcəkdir.



Kitabın buraxılışına məsul Azərbaycan Respublikası Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Ümumi şöbəsinin müdiri Süleyman İsmayılovdur.

**AzərTAc**

*"Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Bakinski raboçi", "Azad Azərbaycan" qəzetləri*
*12 dekabr 2003-cü il*

# DÖVLƏT QULLUĞUNUN TƏŞKILINDƏ YENI MƏRHƏLƏ

*İşləyən və daim təkmilləşən qanun*

**Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra dövlət quruculuğu sahəsində bir çox müvəffəqiyyətlər əldə etmiş, xüsusilə 1993-cü ildən sonra ölkədə sabit ictimai-siyasi və sosial-iqtisadi vəziyyət yaradılması, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, hüquqi, demokratik və dünyəvi dövlətin yaradılması üçün müasir tələblərə cavab verən qanunvericilik bazası formalaşmışdır. 1995-ci ildə Ümumxalq referendumunda qəbul edilmiş yeni Konstitusiya əsasında hazırlanıb təsdiq edilən mühüm qanunlardan biri də Azərbaycan tarixində ilk dəfə qəbul olunan "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanunudur.**

**2000-ci ilin iyulunda Azərbaycanın ümummilli lideri Prezident cənab Heydər Əliyev tərəfindən imzalanmış "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu sonrakı üç il ərzində, demək olar ki, cəmiyyətdə ən böyük maraq doğuran, üzərində daim iş gedən və təkmilləşdirilən normativ hüquqi aktlardan biridir. Onun əsasında qəbul edilmiş daha 6 qanun və 21 fərmanla müxtəlif əsasnamələr, qaydalar, bir sıra sənəd nümunələri təsdiq edilmiş və bununla, demək olar ki, bu mühüm qanunun tətbiqi mexanizmi artıq yaradılmışdır.**

Dövlət qulluğu haqqında qanunun və onunla əlaqədar sənədlərin hazırlanmasında, bu sahədə müasir dünyanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənilib tətbiq edilməsində bu ölkələrin dövlət qurumları ilə əlaqələrin, o cümlədən Avropa İttifaqının Dövlət Qulluğu Sahəsində İslahatların Həyata Keçirilməsi üzrə TACİS Layihəsi çərçivəsində əməkdaşlığın da



böyük köməyi olmuşdur. Bu yaxınlarda Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı həmin layihənin təmsilçiləri ilə birlikdə dövlət qulluğu haqqında bugünədək ölkəmizdə qəbul olunmuş bütün normativ hüquqi aktları müvafiq dəyişikliklər və əlavələr keçirilməklə ilk dəfə kütləvi tirajla çap etmiş və kommersiya məqsədi daşımayan bu kitab respublikanın bütün idarə və təşkilatlarına pulsuz paylanmışdır. Bu kitabın nəşri dövlət qulluğu haqqında qanunvericiliyin öyrənilməsində və tətbiqində, habelə dövlət qulluğunun yenidən qurulmasında çox qiymətli bir vəsaitə çevrilmişdir.

**Yuxarıda qeyd etdiyimiz kimi, "Dövlət qulluğu haqqında" Qanuna əsas dəyişikliklər 2002-ci il 2 iyul tarixli qanunla edilmişdir. Bu dəyişikliklərin mahiyyətindən danışarkən qeyd etməliyik ki, burada Azərbaycanın real şəraiti, onun *idarəçilik sisteminin yerli şəraitə uyğun qurulması* əsas götürülmüşdür. Qanunun ilkin variantında nəzərə alınması mümkün olmayan bəzi cəhətlər onun tətbiqi prosesində dəqiqləşdirilmiş, müvafiq düzəlişlər və əlavələr edilməklə o, daha da təkmilləşdirilmişdir. Bunların ən vaciblərini qeyd etməklə həmin düzəliş və əlavələr haqqında qısaca da olsa, oxuculara məlumat verməyi zəruri hesab edirik.**

**Məsələn, qanunun 2.3 və 2.4-cü maddələrində dövlət *qulluğunun kimə şamil edilməsi* haqqında müddəalar dəqiqləşdirilərək müəyyən edilmişdir ki, prokurorluq, ədliyyə, milli təhlükəsizlik, daxili işlər, gömrük, vergi, xarici işlər orqanlarında, Azərbaycan Respublikasının Milli Bankında dövlət qulluğunda çalışan şəxslərin dövlət qulluğu keçməsi respublikanın başqa qanunları ilə tənzimlənir və bu şəxslərə qanunun yalnız dövlət qulluğuna girmək hüququ, dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsinə aid müddəaları şamil edilir.**

2.4-cü maddənin əvvəlki redaksiyasından fərqli olaraq yeni redaksiyada qanunun hərbi qulluqçulardan başqa, eyni zamanda Azərbaycan Respublikasının Prezidentinə, Milli Məclisin deputatlarına, Baş nazirə və onun müavinlərinə, məhkəmələrin

hakimlərinə, insan hüquqları üzrə Müvəkkilə, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə və onların müavinlərinə, Mərkəzi Seçki Komissiyasının sədrinə, sədr müavinlərinə, katibinə və üzvlərinə, Hesablama Palatasının sədrinə, sədr müavininə və auditorlarına, yerli icra hakimiyyəti orqanlarının başçılarına, Naxçıvan MR Ali Məclisinin deputatlarına, Baş nazirinə və onun müavinlərinə, Muxtar Respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə də şamil edilmədiyi öz əksini tapmışdır.

Qanuna edilmiş əsas dəyişikliklərdən biri də 8-ci maddədə göstərilən dövlət orqanlarının təsnifatının dəqiqləşdirilməsidir. Qanunun əvvəlki redaksiyasından fərqli olaraq bu maddədə dövlət orqanları öz səlahiyyətlərinə görə konkret olaraq adları göstərilməklə yeddi kateqoriyaya bölünür və səlahiyyətləri Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinə və ya Konstitusiya qanunlarına uyğun olaraq müəyyənləşdirilən dövlət orqanlarının hər kateqoriya üzrə adları dəqiq göstərilir. Ən başlıcası isə 1-7-ci kateqoriya dövlət orqanlarının aparıcı və köməkçi bölmələrə bölünməsi təsbit olunur və bunun müvafiq kateqoriyalara aidiyyatının respublika qanunvericiliyi ilə müəyyən edilməsi göstərilir. Bu müddəa isə sonradan qəbul edilmiş "Inzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda daha konkret müəyyənləşdirilir. Qanuna edilmiş dəyişikliklərdən dövlət qulluğu vəzifələrinin təsnifatına aid 10-cu maddədə edilən dəyişikliklər vəzifələrin funksiyalarından, səlahiyyətlərinin mənbələrindən və tutulmasından asılı olaraq onların inzibati və yardımçı vəzifələrə bölünməsini təsbit edir və bu bölgüdə statusu qeyri-müəyyənlik yaradan siyasi vəzifələri tutan şəxslərin hüquqi statusunun başqa qanunvericilik aktları ilə müəyyən ediləcəyi göstərilir.

**Qanunun 11-ci maddəsində inzibati vəzifələrin təsnifatı 14-dən 9-a endirilir, yardımçı vəzifələrin təsnifatı isə konkretləşdirilir və cəmi 6 təsnifat müəyyən edilir. 11.3-cü maddədə isə birinci təsnifat istisna olmaqla, 2-3-cü təsnifat vəzifələrini tutan şəxslərin ixtisas dərəcəsi alması üçün**



**uyğun dövlət orqanlarında və müvafiq vəzifədə fasiləsiz iş stajının müddəti və bu halda vəzifəli şəxsin funksiyalarının məzmunu, peşəkarlığı və idarəçilik təcrübəsi kimi tələblər müəyyənləşdirilir.**

Qanunun 12 və 13-cü maddələrində də mühüm dəyişikliklər edilmiş, "Inzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun nədən ötrü və hansı orqan tərəfindən müəyyən edilməsi və həmin vəzifələrə aid ixtisas tələbləri göstərilmişdir.

Qanuna edilmiş əsas dəyişikliklərdən biri də 16.2-ci maddədə göstərilən ixtisas dərəcələrinin daha konkret müəyyən edilməsidir. İxtisas dərəcələrinin verilməsinə aid olan 17-ci, 17.1-17.6-cı maddələrdə əvvəlki redaksiyadan fərqli olaraq dövlət qulluqçusunun hansı ixtisas dərəcəsində neçə il qalmalı olması əvəzinə yeni redaksiyada ixtisas dərəcəsi almaq üçün həmin vəzifələrdə qulluq müddətinin ardıcıl olaraq nə qədər təşkil etməsi konkret göstərilir.

2002-ci il 3 dekabr tarixli Qanunla edilmiş dəyişiklikdə isə "Dövlət qulluğu haqqında" Qanunun 21.2-ci maddəsi çıxarılaraq dövlət qulluqçularına verilən imtiyazlardan biri ləğv edilir, yəni onların sosial sığorta və məşğulluq orqanlarına ödənişlərdən azad edilmələri haqqında güzəşt aradan qaldırılır.

Qanunun 22.3-cü maddəsində inzibati vəzifələrin doqquzuncu təsnifatı və yardımçı vəzifələrin altıncı təsnifatı üzrə dövlət qulluqçusunun maaşının məbləğinin müəyyən edilməsi prinsipi konkretləşdirilir. 23.3-cü maddədə edilmiş dəyişikliklə isə pensiya yaşına çatmasına və ya əlilliyinə görə və könüllü işdən çıxmış və dövlət qulluğunda xidmət illərinin minimum həddinə malik olmayan dövlət qulluqçusuna qanunvericiliklə müəyyən edilmiş miqdarda ömürlük müavinət təyin edilməsi öz əksini tapır. Halbuki əvvəlki redaksiyada bu məbləğin müəyyən edilməsi icra və məhkəmə hakimiyyəti orqanının ixtiyarına verilirdi. Bu da, təbiidir ki, müəyyən subyektivliyə əsas yaradır, dövlət qulluqçularının mənafeyinə müəyyən dərəcədə toxunurdu. Eyni prinsip dövlət qulluğuna qəbul qaydalarını əks etdirən 28.4 və 28.6-cı maddələrdə də əsas götürülür.

28.1-ci maddədə verilmiş dəyişiklikdə isə dövlət qulluğuna vətəndaşların təkcə müsabiqə yolu ilə deyil, həm də müsahibə yolu ilə qəbul edilməsi təsbit olunur.

Qanuna edilmiş dəyişikliklərin bir cəhəti də Dövlət Qulluğunu İdarəetmə Şurasının səlahiyyətlərinin genişləndirilməsidir. Məsələn, 29.4-cü maddənin əvvəlki redaksiyasında dövlət orqanının rəhbəri dövlət qulluğunu idarəetmə orqanının tövsiyəsi ilə razılaşmadıqda, yaranmış fikir ayrılığı müvafiq qanunvericilik və ya icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada aradan qaldırılırdısa, yeni redaksiyada bu səlahiyyət bilavasitə Dövlət Qulluğunu İdarəetmə Şurasına verilir. Qanunun 33.3 və 33.4-cü maddələrində dövlət qulluqçusu pensiya yaşına çatmasına görə könüllü işdən çıxdıqda, ona ümumi qaydada verilən birdəfəlik haqqın məbləği və ondan vergi tutulmadığı da müəyyən edilir. Eyni zamanda dövlət qulluqçusu işdən çıxmaq barədə ərizə verdikdən sonra dövlət orqanı rəhbərinin qərarı ilə onun üç ay ərzində dövlət qulluğunu davam etdirməsinin məcburiliyi müəyyənləşdirilir.

Göründüyü kimi, "Dövlət qulluğu haqqında" Qanun qəbul edildikdən sonra xeyli təkmilləşdirilmiş, orada əksini tapmış bir sıra müddəalar daha da konkretləşdirilmiş, yəqin ki, vaxt keçdikcə bu iş davam etdiriləcəkdir.

### ***Qanuna edilmiş dəyişikliklər onunla əlaqədar normativ hüquqi aktlarda öz əksini necə tapır?***

**"Dövlət qulluğu haqqında" Qanuna edilmiş yuxarıdakı dəyişikliklər qanunla əlaqədar qəbul edilmiş digər normativ hüquqi aktlara da dəyişikliklər olunmasını zəruri etmiş və Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli fərmanı ilə bu dəyişikliklər həyata keçirilmişdir. Bunlardan dövlət orqanlarının digər icra hakimiyyəti orqanlarından fərqləndirilməsi ilə əlaqədar olan düzəlişi, yəni bütün aktlarda "icra hakimiyyəti orqanları" sözlərinin "dövlət orqanları" sözləri ilə əvəz edilməsini göstərməliyik.**



**Lakin dəyişikliklər təkcə bundan ibarət deyildir. Fərmanın VI bölməsində "İcra hakimiyyəti orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli fərmanı ilə təsdiq edilmiş qaydaların dördüncü bəndinə edilmiş əlavə ilə müəyyən olunur ki, dövlət qulluqçusunun qulluq stajına 1991-ci ilin oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında iş müddəti də daxil edilir.** Həmin qaydaların 6-cı bəndinə edilmiş dəyişiklik isə qanunun 11.1-ci maddəsinə edilmiş dəyişiklikdən irəli gəlir və burada göstərilir ki, inzibati vəzifələrin birinci təsnifatı istisna olmaqla, 2-3-cü təsnifat vəzifələri tutan şəxslərin müvafiq ixtisas dərəcəsi alması üçün dövlət orqanında azı yeddi illik fasiləsiz əmək stajı və müvafiq vəzifədə azı üç illik fasiləsiz əmək stajı olmalıdır, 4-7-ci təsnifat vəzifələrində isə fasiləsiz əmək stajı beş il müəyyən olunur. Halbuki əvvəlki redaksiyada dövlət qulluqçularının ixtisas dərəcələri almaq üçün tələb olunan müddət yox, ixtisas dərəcələrində qalma müddəti müəyyənləşdirilirdi. Bundan başqa bu maddədə digər təsnifat dərəcələri, habelə müvafiq yardımçı vəzifələr üçün müəyyən edilmiş ixtisas dərəcələri alma müddətləri dəqiq göstərilmişdir. Qaydaların 12-ci bəndinə edilmiş dəyişiklikdə isə inzibati və yardımçı vəzifələrin dərəcələrinin sayı 11-dən 17-dək artırılmış və onlara müvafiq əlavə haqqın məbləği şərti maliyyə vahidinin 30 mislindən başlayaraq 4 mislinə qədər konkret müəyyən edilmişdir.

Fərmanın VIII bölməsində Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında dövlət qulluqçusuna vəzifədə qulluq stajına görə əlavə haqqın məbləğlərinin müəyyənləşdirilməsi Qaydaları"nın 9-cu bəndində edilmiş dəyişiklikdə isə qulluq stajının hesablanmasında 1991-ci il oktyabrın 18-dək dövlət, sovet və partiya orqanlarında iş müddətinin də daxil edilməsi öz əksini tapmışdır. Həmçinin Qaydalardan 13-cü bənd çıxarılmışdır. Bu bənddə isə göstərilirdi ki, dövlət qulluqçusu daha yüksək dərəcəli dövlət

qulluğu vəzifəsinə təyin edilərkən əvvəlki vəzifəsində qulluq stajına görə əlavə haqq verilmir.

Qanunun 29.4-cü maddəsinə edilmiş dəyişikliklə əlaqədar fərmanda həmçinin "İcra hakimiyyəti orqanlarında vəzifələrin tutulması ilə bağlı dövlət orqanının rəhbəri dövlət qulluğunu idarəetmə orqanının tövsiyəsi ilə razılaşmadıqda yaranmış fikir ayrılığının aradan qaldırılması qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli fərmanı da qüvvədən düşmüş hesab edilmişdir.

Fərmanın əsas müddəalarından biri də Azərbaycan Respublikasının Nazirlər Kabinetinə dövlət orqanlarında çalışan dövlət qulluqçularının aylıq vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin 2003-cü il sentyabrın 1-dən tətbiq olunmasını təmin etmək barədə konkret tapşırıq verilməsidir.

**"Dövlət qulluğu haqqında" Qanunla əlaqədar normativ hüquqi aktlara sonuncu dəyişiklik və əlavələr Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 2003-cü il 4 noyabr tarixli qanunla edilmiş, Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnaməyə 2.1.10-cu maddə artırılmışdır. Həmin maddədə göstərilir ki, dövlət qulluğunda vəzifə tutma ilə bağlı dövlət orqanının rəhbəri ilə dövlət qulluğunu idarəetmə orqanı arasında yaranmış fikir ayrılığının aradan qaldırılması qaydası da Şura tərəfindən müəyyən edilir.**

Bu qanunla həmçinin "Dövlət qulluqçularının icbari sığortası haqqında" qanuna da dəyişikliklər edilərək inzibati vəzifələrin təsnifat sayı dəyişdirildiyinə görə onun 4.1.5-ci maddəsi çıxarılmışdır.

### *"İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu" nəyə xidmət edir?*

"Dövlət qulluğu haqqında" Qanunun qəbul edilməsindən sonra keçən müddət ərzində yuxarıda qeyd etdiyimiz kimi, bir çox normativ hüquqi aktlar qəbul edilsə də qanunun real surətdə işləməsi üçün əsas açar rolunu oynayan "İnzibati və



yardımçı vəzifələrin Təsnifat Toplusu"nun təsdiq edilməsi yalnız 2003-cü ilin avqustunda başa çatdırılmış və bu Təsnifat Toplusunun təsdiq edilməsi ilə dövlət qulluğunun təşkilində yeni mərhələ başlanmışdır. 2003-cü il sentyabrın 1-dən tətbiq edilən bu Təsnifat Toplusunun əsasən nəyə xidmət etməsi hamı üçün böyük maraq doğurduğundan onun üzərində xüsusi olaraq dayanmaq istərdik.

Fərmanın özündə qeyd olunduğu kimi, "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu" "Dövlət qulluğu haqqında" Qanunun 12-ci maddəsi rəhbər tutularaq təsdiq edilmişdir. "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu" 5 bölmədən ibarətdir. **Bu bölmələrdə Təsnifat Toplusunun nədən ibarət olması, onun dövlət orqanlarının ştat cədvəllərinin hazırlanması və dövlət qulluqçularının vəzifə təlimatlarının hazırlanması üçün əsas olduğu, bu vəzifə təlimatlarının respublika Prezidenti və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbul edildiyi, qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarında, Naxçıvan MR-nın müvafiq orqanlarında bu səlahiyyətlərin kimin yerinə yetirdiyi, habelə dövlət orqanlarının aparıcı və köməkçi bölmələri dedikdə nəyin nəzərdə tutulduğu öz əksini tapmışdır. Burada inzibati və yardımçı vəzifələrin necə adlandırılması və dövlət qulluğunun təşkilində əsas götürülməsi təsbit olunmuşdur. "İnzibati və yardımçı vəzifələrin təsnifatları və adları" bölməsində inzibati vəzifələrin 9 təsnifatının hər birinə respublikada mövcud olan mərkəzi və yerli icra hakimiyyəti orqanlarının dövlət qulluğu vəzifəsi tutan şəxslərinin hansı təsnifata aid olduğu dəqiq müəyyələşdirilmiş, eyni zamanda yardımçı vəzifələrin 6 təsnifatı üzrə yardımçı vəzifələrdə çalışan qulluqçuların vəzifələri konkret olaraq göstərilmişdir.** Toplunun əsas bölmələrindən biri də "İnzibati və yardımçı vəzifələrin ixtisas dərəcələri" adlı üçüncü bölmədir ki, burada da hər bir təsnifat üzrə inzibati vəzifə tutan dövlət qulluqçularına hansı ixtisas dərəcələri verilməsi müəyyən olunmuşdur. Toplunun "İnzibati

və yardımçı vəzifələrin tutulması üçün ixtisas tələbləri" adlı dördüncü bölməsində inzibati və yardımçı vəzifələrin tutulması üçün ixtisas tələbləri müəyyən edilir.

Təsnifat Toplusunun "Keçid müddəaları" adlanan beşinci bölməsində Təsnifat Toplusu tətbiq edilənədək dövlət orqanlarında (1-ci və 2-ci kateqoriya dövlət orqanları istisna olunmaqla) və onların bölmələrində müvafiq təsnifatlar üzrə mövcud olan baş idarə, idarə, departament və müstəqil şöbə rəislərinin - şöbə müdirinə, şöbə rəislərinin - sektor müdirinə, baş mütəxəssis vəzifələrinin baş məsləhətçi və ya böyük məsləhətçi vəzifələrinə, aparıcı mütəxəssis vəzifələrinin aparıcı məsləhətçi vəzifələrinə, mütəxəssis vəzifələrinin isə məsləhətçi vəzifələrinə uyğunlaşdırılmalı olduğu göstərilir.

Qeyd etmək lazımdır ki, "Dövlət qulluğu haqqında" Qanunun 8.2 və 8.3-cü maddələrində göstərilir ki, dövlət orqanlarının bölmələri onlara həvalə edilmiş funksiyalara görə aparıcı və köməkçi bölmələrə bölünür və onların müvafiq kateqoriyalara aidiyyatı qanunvericilik əsasında müəyyən edilir. Məhz 8.3-cü maddəyə uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 22 oktyabr tarixli fərmanı ilə icra hakimiyyəti orqanlarında onlara həvalə edilmiş funksiyalara görə aparıcı və köməkçi bölmələrin siyahısı müəyyən edilmişdir.

Eyni zamanda göstərilmişdir ki, mərkəzi icra hakimiyyəti orqanlarının mərkəzi aparatında konkret olaraq adları göstərilməklə aparıcı və köməkçi bölmələrin siyahısı Maliyyə Nazirliyi və respublikanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmaqla müvafiq mərkəzi icra hakimiyyəti orqanının rəhbəri tərəfindən təsdiq olunur.

"İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun təsdiq edilməsindən sonra həqiqətən dövlət qulluğunun təkmilləşdirilməsi və yenidən qurulması üçün respublikada böyük işlər görülmüş, artıq mərkəzi və yerli icra hakimiyyəti orqanlarının əksəriyyətində dövlət qulluqçularına dövlət qulluğunda iş stajına görə əlavə haqqın məbləği müəyyən edilmiş, nazirliklərdə və komitələrdə dövlət qulluqçularına ixtisas dərəcələri verilməsi, demək olar ki, başa çatdırılmış və



bunlar dövlət qulluqçularının maddi təminatını bir qədər yaxşılaşdırmışdır.

Bundan əlavə dövlət orqanlarının çoxunda mərkəzi aparatların strukturu və orada mövcud olan inzibati və yardımçı vəzifələrin adları yenidən təsdiq olunmuş, Təsnifat Toplusuna uyğun olaraq nazirliklərin və komitələrin icra aparatları yaradılmış, onların rəhbərləri və digər işçiləri təyin edilmişdir. Lakin bu işin tam başa çatdırıldığını da demək tezdir.

### *Real həyatdan doğan suallar, görülən və görüləsi işlər*

"İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu" təsdiq edildikdən sonra onun tətbiqi prosesində real həyatdan doğan bir sıra problemlər və suallar meydana gəlmişdir. Bu, müəyyən dərəcədə indiyədək qəbul edilmiş normativ hüquqi aktlarda hansısa cəhətlərin nəzərə alınmadığı ilə yanaşı, həm də yerlərdə qanunun kifayət qədər diqqətlə öyrənilmədiyindən irəli gəlir.

Xüsusilə dövlət qulluğunda əmək stajının hesablanması və ixtisas dərəcələrinin verilməsi məsələlərinə dair Prezidentin İcra Aparatına və Dövlət Qulluğunu İdarəetmə Şurasına idarə və təşkilatlardan, bilavasitə dövlət qulluqçularından müxtəlif müraciətlər daxil olmaqdadır. Təbiidir ki, həmin təkliflər və müraciətlər, onlarda qaldırılan problemlər diqqətlə öyrənilir, araşdırılır, onlara mümkün qədər ətraflı və dolğun cavablar verilməsinə səy göstərilir, eyni zamanda bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi üçün tədbirlər görülür.

Bəzi mərkəzi icra orqanlarından daxil olan rəsmi müraciətlərdə onların kateqoriyalarının Təsnifat Toplusunda daha aşağı kateqoriyaya salındığı, yaxud onların tabe təşkilatlarının bu təsnifata nə dərəcədə aid olub-olmadığı, habelə 1991-ci ildən sonra ölkədə aparılmış struktur islahatları nəticəsində ləğv edilmiş və ya başqa orqanlara birləşdirilmiş idarəetmə orqanları qulluqçularının əmək stajının hansı formada nəzərə alınacağı məsələləri qaldırılır.

**Eyni zamanda respublikada qüvvədə olan digər normativ hüquqi aktların hamısının bu qanuna uyğunlaşdırılaraq onlara müvafiq dəyişikliklər keçirilməsi və dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqində yaranan bəzi maneələr və çətinliklərin aradan qaldırılması təklif edilir.**

**Qanunla əlaqədar Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktlarına lazımi dəyişikliklər və əlavələr edilməsinə baxmayaraq, görünür, bu sahədə hələ görüləsi müəyyən işlər qalmışdır. Bu xüsusilə, yerli icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanlarının aparatlarına aiddir.** Bir sıra təşkilatlar qanunun tətbiqindən sonra 2004-cü il yanvarın 1-dək dövlət qulluqçularının məzuniyyətlərinin ödənilməsində və onlara əlavə haqların verilməsində büdcə vəsaiti ilə əlaqədar problemlər yarandığını göstərir və qeyd edirlər ki, 2003-cü ilin büdcəsində bu xərclər nəzərə alınmadığı üçün bu sahədə çətinliklər yaranır.

Qeyd etmək lazımdır ki, artıq 2004-cü ilin büdcəsində həmin xərclərin ödənilməsi üçün vəsait nəzərdə tutulmuşdur və yəqin ki, bu məsələlər daha asan həll olunacaqdır.

Yuxarıda qeyd etdiyimiz kimi, dövlət qulluqçularından xüsusilə əmək stajının hesablanması və ixtisas dərəcəsinin verilməsi ilə əlaqədar müraciətlər daha çox daxil olur. Məsələn, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzinin mühasibat uçotu və hesabatı şöbəsinin rəisi D.Əlişov müraciət edərək Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə yaradılmış mərkəzin tərkibində 14 elmi tətqiqat institutunun, 50-yə qədər bölgə təcrübə təsərrüfatının, 9 regional aqrar elm mərkəzinin və 21 dövlət kənd təsərrüfatı istehsal müəssisəsinin olmasına baxmayaraq onun və mərkəzin 32 nəfər işçisinin dövlət qulluqçusu hesab edilmədiyini bildirir. Müraciətə verilmiş cavabda bildirilmişdir ki, "Dövlət qulluğu haqqında" Qanunun 2.2-ci maddəsinə əsasən, qanun icra hakimiyyəti orqanlarında, qanunvericilik və məhkəmə hakimiyyəti orqanlarının aparatlarında dövlət qulluğu keçən qulluqçulara şamil edilir. Bu anlayışlar Qanunun 7.1 və 14.1-ci maddələrində müəyyən



edilmişdir. "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 2.1.6-cı bəndinin dördüncü abzasına əsasən, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında və ya onun qərarı ilə yaradılan orqanların aparatlarında şöbə müdiri və müdir müavini vəzifələri inzibati vəzifələrin altıncı təsnifatına aid edilmişdir. Qanunun 2.5-ci maddəsinə uyğun olaraq, bu qanun müvafiq icra hakimiyyəti orqanlarının tabeliyində olan müəssisələrin işçilərinə şamil edilmir və onların qulluğu ilə bağlı məsələlər Əmək Məcəlləsi ilə tənzimlənir. Buna görə də ərizəçinin qaldırdığı məsələnin həlli qeyri-mümkündür.

Yaxud, Ordubad rayon İcra hakimiyyəti başçısı aparatının Ümumi şöbəsinin müdiri H.Həsənov əmək stajının hesablanması zamanı keçmiş rayon partiya komitəsinin və icraiyyə komitəsinin orqanı olan "Yeni Ordubad" qəzeti redaksiyasında şöbə müdiri, məsul katib və redaktor müavini vəzifələrində çalışdığı 20 ildən çox müddətin hesablanmadığını göstərir.

Ərizəçiyə göndərilən cavabda "Dövlət qulluğu haqqında" Qanunun müvafiq maddələrinə uyğun olaraq ona lazımi izahat verilmişdir. Eyni zamanda H.Həsənova izah edilmişdir ki, onun tutduğu vəzifə Təsnifat Toplusunun 2.1.7-ci və 3.2.7-ci bəndlərinə əsasən inzibati vəzifələrin yeddinci təsnifatına uyğundur və ona 1-ci dərəcə dövlət qulluqçusu və 2-ci dərəcə dövlət qulluqçusu ixtisas dərəcələrindən biri verilə bilər.

Bundan başqa, onun İHB aparatında iş stajında fasilələrlə əlaqədar sualına cavab olaraq bildirilmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi Qaydaları"nın 6-cı bəndinə müvafiq olaraq dördüncü-yeddinci təsnifat vəzifələrini tutan şəxslərin dövlət orqanlarında azı beş illik əmək stajı olmadığı halda, vəzifəli şəxsə tutduğu vəzifənin ardınca gələn inzibati vəzifə təsnifatına uyğun ixtisas dərəcəsi verilir və inzibati vəzifələr çərçivəsində daha yüksək ixtisas dərəcəsi almaq üçün yeddinci-doqquzuncu təsnifat vəzifələrini tutan şəxsin qulluq müddəti ardıcıl olaraq iki il təşkil etməlidir.

Bu və digər problemlərin tənzimlənməsi üçün, görünür, həm mətbuatda bu məsələlərə dair lazımi şərhlər verilməli, həm müvafiq seminarlar, treyninqlər və başqa tədbirlər keçirilməli, lazım gələrsə, bu sahədə qanunvericilik daha da təkmilləşdirilməlidir.

Dövlət qulluğunun şamil edildiyi dövlət orqanlarının reyestrinin hazırlanması da nəzərdən keçirilməlidir. Yəqin ki, Dövlət Qulluğunu İdarəetmə Şurası tam şəkildə fəaliyyətə başladıqdan sonra bu məsələlər öz həllini daha dəqiq tapacaq və çox güman ki, respublika Nazirlər Kabineti müvafiq sənədlər hazırlayıb təsdiq edəcəkdir.

"Dövlət qulluğu haqqında" Qanunun tam gücü ilə işləməsi üçün görüləsi işlər sırasında siyasi vəzifə tutan şəxslərin statusunun müəyyən edilməsi, Azərbaycan Respublikası Konstitusiyasının 113-cü maddəsində nəzərdə tutulmuş və 5-ci kateqoriya dövlət orqanlarına daxil edilmiş bir sıra mərkəzi dövlət hakimiyyəti orqanlarının əsasnamələrinin "Dövlət qulluğu haqqında" Qanuna uyğun olaraq yenidən təsdiq olunması, ikili tabelikdə olan yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinə ixtisas dərəcələrinin verilməsi və başqa aktual məsələlər yəqin ki, öz həllini tapacaq, Dövlət Qulluğunu İdarəetmə Şurası tam fəaliyyətə başlamaqla bu işlərin daha operativ həll edilməsinə təkan veriləcəkdir.

### *Mükəmməl dövlət qulluğu mükəmməl dövlət idarəçiliyi deməkdir*

Oxucuların diqqətinə çatdırılan bu yazıda biz "Dövlət qulluğu haqqında" Qanunun təkmilləşdirilməsi, qanuna edilmiş dəyişikliklər, bu dəyişikliklərlə bağlı digər normativ hüquqi aktlarda edilmiş yeniliklər, "İnzibati və yardımçı vəzifələrin Təslifat Toplusu" və onun əsas cəhətləri, habelə dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi üçün görülmüş real işlər, bu iş prosesində ortaya çıxan suallar və problemlər barədə yığcam da olsa məlumat verdik.



Eyni zamanda qanunun təkmilləşdirilməsi prosesinin davam etdiyini, bir sıra normativ hüquqi aktların üzərində iş getdiyini bildirdik, habelə digər məsələləri şərh etdik. Hazırda respublikada dövlət idarəçiliyinin müasir beynəlxalq tələblər səviyyəsində qurulması, bu işin dünya standartları səviyyəsinə qaldırılması üçün gərgin iş davam edir.

Bütün görülən işlərin yeganə məqsədi Azərbaycanın dövlətçiliyini daha da möhkəmləndirmək, ölkəmizdə demokratik dəyərlərə üstünlük vermək, son nəticədə xalqın maddi rifahını daha da yaxşılaşdırmaq, hər bir vətəndaşın hüquq və azadlıqlarının, insan haqlarının qorunmasını daha yaxşı təmin etməkdir.

**Ölkəmizdə hüquqi dövlətin əsası olan qanunvericiliyin təkmilləşdirilməsi prosesi durmadan davam edir. Azərbaycan dövləti dünya sivilizasiyasının layiqli üzvü olmaq üçün beynəlxalq müqavilə və konvensiyalara daha geniş qoşulur, özünün dünya birliyinin layiqli üzvü olduğunu sübut etmək, öz vətəndaşlarının işıqlı gələcəyini təmin etmək üçün ümummilli liderimiz Heydər Əliyevin xəttinin layiqli davamçısı hörmətli Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında həyatın bütün sahələrində olduğu kimi dövlət quruculuğu sahəsində işləri də uğurla davam etdirir.**

Mətbuatdan məlum olduğu kimi, Milli Məclisdə qəbul olunan korrupsiyaya qarşı mübarizə haqqında qanun ölkədə ədalətin, aşkarlığın daha geniş bərqərar olmasına, ictimai televiziya haqqında qanun isə şəffaflığın və demokratiyanın güclənməsinə xidmət edəcəkdir. "Dövlət qulluğu haqqında" Qanun isə real həyatdan doğan və real həyatla daim ayaqlaşa bilən bir qanun olaraq bundan sonra da Azərbaycanda mükəmməl dövlət idarəçiliyinin yaranmasına və bərqərar olmasına xidmət edəcəkdir.

*"Azad Azərbaycan" qəzeti*
*28 yanvar 2004-cü il*

# Mündəricat

Ön söz ........ 3

Müəllifdən ........ 5

Dövlət qulluğu Vətənə və millətə xidmət deməkdir ........ 8

Yeni əsrin dövlət qulluqçusu ........ 15

Dövlət qulluqçusunun əməyi necə dəyərləndirilir? ........ 29

Yaponiyada dövlət qulluğu sistemi ........ 32

Dövlət qulluqçusu üçün sınaq müddəti
həyat vəsiqəsidir ........ 47

Dövlət qulluğuna müsabiqə vasitəsi ilə qəbul
düzgün seçim yoludur ........ 52

Dövlət qulluqçusunun hüquqi müdafiəsi necə
təşkil olunur ........ 58

"Dövlət qulluğu məsələlərinə dair normativ
hüquqi aktlar"ın ilk nəşri ........ 65

Dövlət qulluğunun təşkilndə yeni mərhələ ........ 68

*İşləyən və daim təkmilləşən qanun* ........ 68

*Qanuna edilmiş dəyişikliklər onunla əlaqədar
normativ hüquqi aktlarda öz əksini necə tapır?* ........ 72

*"İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"
nəyə xidmət edir?* ........ 74

*Real həyatdan doğan suallar, görülən və görüləsi işlər* ........ 77

*Mükəmməl dövlət qulluğu mükəmməl dövlət
idarəçiliyi deməkdir* ........ 80



**SÜLEYMAN ABBAS OĞLU İSMAYILOV**

1957-ci ildə anadan olmuş, 1978-ci ildə Simferopolda ali təhsil almış, 1980-ci ildə Bakıda ikiillik partiya məktəbini, 1988-ci ildə ADU-nun hüquq fakültəsini bitirmişdir, politoloq, hüquqşünasdır.

1982-ci ildən müxtəlif dövlət orqanlarında, 1994-cü ildən Prezidentin İcra Aparatında çalışmış, 1996-cı ildən Prezidentin İcra Aparatının Ümumi şöbəsinin müdiridir.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında Sənədlərin Ekspertizası və Arxiv İşi üzrə Mərkəzi Ekspert Komissiyasının sədri, Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvüdür, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında pedaqoji fəaliyyətlə məşğul olur, YAP Siyasi Şurasının və Səbail rayon təşkilatı idarə heyətinin üzvüdür.

2002-ci ildə Yaponiya Hökumətinin Beynəlxalq Əməkdaşlıq Proqramı çərçivəsində Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin Milli Kadrlar İdarəsinin Orta Asiya ölkələri üçün təşkil etdiyi regional təlim kursunun sertifikartını almışdır.